# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 50 (1395), 30 noyabr - 2 dekabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Yaponiyanın paytaxtı Tokioda Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) Baş Assambleyası keçirilir

Yaponiyanın paytaxtı Tokioda Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) Baş Assambleyası keçirilir.

Assambleya çərçivəsində MOKA-nın audit və maliyyə, marketinq, atletlər, beynəlxalq əlaqələr və tibbi komissiyalarının iclasları keçirilib və məruzələr dinlənib. Gənclər komissiyasının və MOKA-nın İcraiyyə Şurasının iclasları da gündəliyə daxil edilib.

Noyabrın 28-dən MOKA-nın Baş Assambleyası işə başlayıb. Assambleyada 206 Milli Olimpiya Komitəsindən 1400-dək nümayəndə iştirak edib. Tədbir MOKA-nın prezidenti Şeyx Əhməd Al-Fasad Al-Sabahın açılış nitqi ilə başlayıb.

Assambleya iştirakçılarının "Tokio 2020" Yay Olimpiya Oyunlarının keçiriləcəyi yarış obyektləri ilə tanışlığı da nəzərdə tutulub.

Noyabrın 28-də Baş nazir Tokioda işə başlayan Milli Olimpiya Komitələri Assosiasiyasının Baş Assambleyasının iştirakçıları qarşısında çıxış edib. O deyib ki, Yaponiya 2020-ci il Oyunlarının təhlükəsiz, rahat və cəlbedici olması üçün vahid komanda kimi işləməyə çalışacaq.

Yaponiyanın Baş naziri Şinzo Abe bəyan edib ki, Tokioda 2020-ci ildə keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunları zamanı yapon hökuməti bütün dünyaya ölkənin yeni texnologiyalarını və qədim mədəniyyətini nümayiş etdirəcək.

Tədbirdə dünyanın 206 ölkəsindən, o cümlədən Azərbaycandan nümayəndələr iştirak edir. Azərbaycan nümayəndə heyətinə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə rəhbərlik edir.

Sonda Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin iclası keçiriləcək.

## Azərbaycan nümayəndə heyəti AƏOH-un 24-cü Konqres və Assambleyasında ölkəmizi təmsil edib



Noyabrın 22-23-də Belçikanın paytaxtı Brüsseldə Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) 24-cü Konqres və Assambleyası keçirilib. Tədbirdə ölkəmizi Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev və AzƏOK-un məsul katibi Aysel Sultanova təmsil ediblər.

Noyabrın 23-də Avropa Regionlar Komitəsində keçirilən Konqresdə AƏOH-a üzv olan 30-dan çox ölkənin, eləcə də, Belçikada yaşayan müxtəlif dinlərin nümayəndələri iştirak ediblər."İdman başəriyyətin ruhudur" mövzusunda geniş müzakirələr aparılıb, məruzələr dinlənilib.

*(ardı 2-ci səhifədə)*

## Millimiz dünya çempionatını bürünc medalla başa vurdu




Birləşmiş Ərəb Əmirliyinin Fucairah şəhərində keçirilən taekvondo üzrə komandalararası dünya çempionatına yekun vurulub.

Çempionatda iştirak edən Azərbaycanın böyüklərdən ibarət yığma komandası yarımfinalda Rusiya millisi ilə qarşılaşıb. Bərabər səviyyədə keçən görüşdən Rusiya komandası qalib ayrılaraq finala yüksəlib. Meksika və Bakıda təşkil olunmuş dünya kuboku və komandalararası dünya çempionatında qalib olan millimiz bu yarışı bürünc medalla başa vurub.

Finalda isə Rusiya və İran taekvondoçuları üz-üzə gəliblər. Çempionatın qalibi İran millisi olub.

Komandamız yarışda baş məşqçilər Reza Mehmandoust, Elnur Amanov və böyük məşqçi Rəşad Əhmədovun rəhbərliyi ilə çıxış edib.


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


## *Şöhrətin zirvəsinə idmanla yüksələn Azərbaycan xanımları*

Səh. 5

## Olimpizm

### Tomas Bax aksiyaya dəstək nümayiş etdirdi

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Tokio-2020 Olimpiya Oyunları Təşkilat Komitəsinin ekologiya təşəbbüsünə dəstək məqsədi ilə şəxsi əl telefonunu onlara təslim edib.

Yaponiyada istifadə olunmayan elektrik vasitələrinin toplanması kampaniyasına 2017-ci ildə start verilib. Yaponlar Olimpiya medallarını məhz bu vasitələrin içində olan qiymətli materialdan hazırlayacaqlar. İdeya müəllifi bu aksiyanın "gündoğar ölkənin" ekologiyasının qorunmasına və Olimpiya Oyunlarının təşkilinə bir töhfə olacağı qənaətindədir.

Tokio-2020 Olimpiadasının medalları 2019-cu ildə təqdim olunacaq.

### Milan və Stokholm Olimpiada-2026-ya ev sahibliyi iddiasındadır

Milan (İtaliya) və Stokholm (İsveç) Beynəlxalq Olimpiya Komitəsinin Tokioda keçirilən iclasında Olimpiada-2026-ya ev sahibliyi etmək üçün namizədliklərini təqdim ediblər.

Qeyd edək ki, XXIV Qış Olimpiya Oyunlarının ev sahibinin adı növbəti ilin iyununda Lozannada açıqlanacaq.

Bundan əvvəl Kalqari, Siyon və Qrats şəhərləri Olimpiada-2026 uğrunda namizədlik mübarizəsindən geri çəkiliblər. Sapporo isə diqqətini Olimpiada-2030 uğrunda mübarizəyə yönəldib.


ƏZİZ OXUCULAR!

"Olimpiya dünyası"-na 2019-cu il üçün abunə yazılışı başlayıb.

OLİMPİYA DÜNYASI

Abunə yazılışının

3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)

Abunə yazılmaq üçün
- "Azərmətbuatyayımı" İB-ə (tel: 440 39 83)
- "Qaya" (tel: 565 67 13)
- "Səma" (tel: 596 22 97)
- "City Press" (tel: 437 28 10)
- "Kaspi" (tel: 432 39 55)

mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz

"Olimpiya dünyası"- idmanımızın aynası


## Anons


*Bert Şufs: "Biz Braziliyaya qalib gəldik. Unudulmaz hadisədir..."* Səh. 3

"Bu qələbə mənim karyeramda yeni mərhələ oldu" Səh. 4

Paytaxtımız dünya çempionatına uğurla ev sahibliyi etdi Səh. 6

*Çempionlar Liqası: İngiltərə klubları ümidləri doğrultmadılar* Səh. 7

*Ədalətli Oyunlar*

# Azərbaycan nümayəndə heyəti AƏOH-un 24-cü Konqres və Assambleyasında ölkəmizi təmsil edib



(əvvəli 1-ci səhifədə)

Həmin gün Brüssel Parlamentində AƏOH-un ilin yekunlarına həsr olunmuş "Qala Mükafatlandırma" mərasimi keçirilib. Mərasimdə dünya idmanında fərqlənən idmançılar və mütəxəssislərə AƏOH-un ədalətli oyunlar sahəsində mükafatları təqdim olunub.

Noyabrın 24-də Belçika Olimpiya Komitəsində AƏOH-un 24-cü Baş Assambleyası keçirilib. Tədbirdə gündəlikdə dayanan bir sıra məsələlər müzakirə olunub, iştirakçı nümayəndələr öz təcrübəsini bölüşüb, ideyalarını paylaşıblar. Qurumun hesabatı dinlənilib və növbəti il üçün büdcəsi təsdiqlənib.

Assambleya çərçivəsində iştirakçı ölkə nümayəndələri arasında interaktiv seminar təşkil edilib. Müxtəlif qruplara bölünən işçi qrupları ədalətli oyunlar hərəkatının müxtəlif aspektlərdən təbliğ və inkişaf etdirilməsi istiqamətində müzakirələr apararaq təcrübələrini paylaşıblar.

Azərbaycan nümayəndə heyəti tərəfindən bu il AzƏOK-un 20 illik yubiley mərasiminin, BƏOK-un Qala Mükafatlarının təqdimetmə mərasiminin Bakıda keçirilməsi barədə məlumat verilib. Bildirilib ki, yubiley ərəfəsində AzƏOK-un sədri Xəzər İsayevin müəllifi olduğu qurumun 20 illik fəaliyyətindən bəhs edən "Azərbaycanda Ədalətli Oyunlar-20 il" kitabı və təşkilatın yeni loqosu ictimaiyyətə təqdim edilib. Qeyd olunub ki, BƏOK tərəfindən Ədalətli Oyunlar Regional İnkişaf Mərkəzinin Azərbaycanın paytaxtı Bakıda yaradılması qərara alınıb. Assambleya zamanı "Azərbaycanda Ədalətli Oyunlar-20 il" kitabı tədbir iştirakçılarına təqdim edilib.

Assambleyanın sonunda növbəti Konqresin 2019-cu ildə hansı ölkədə keçirilməsi məsələsi gündəmə qoyulub və müzakirələr aparılıb. Qeyd edək ki, tədbirin hansı ölkədə keçirilməsi növbəti ilin əvvəlində AƏOH-un İcraiyyə Komitəsi tərəfindən təsdiq olunacaq.



*Güləş*

## Pəhləvanlarımız Qroznıda mübarizə aparıblar




Pəhləvanlarımız Çeçenistanın paytaxtı Qroznıda keçirilən sərbəst güləş üzrə "Əhməd Kadırov" turnirində mübarizə aparıblar.

Beynəlxalq turnirdə 5 komanda mübarizə aparıb. Böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Sadruddin Ayqubovun rəhbərliyi altında çıxış edən millimiz dairəvi keçirilən yarışda üçüncü yerə layiq görülüb. Millimiz Qırğızıstan (10:0) və Monqolustan kollektivinə (8:2) qalib gəlsə də, "Axmat" (3:7) və "Avropa"ya (4:6) məğlub olub. Beynəlxalq turnirin bürünc mükafatına sahib çıxan yığmamız 22 min dollar pul mükafatına layiq görülüb.

* * *

İranın Urmiya şəhərində keçirilən gənc güləşçilər arasında "Martyrs Cup" turnirində sərbəst güləşçilərin mübarizəsinə yekun vurulub. Məşqçilər Rövşən Hacıyev və Əşrəf Əliyevin rəhbərliyi altında mübarizə aparan yığmamız qrupda əvvəlcə Urmiya kollektivi ilə qarşılaşıb. Görüş 5:5 hesabıyla başa çatıb. Fərdi qarşılaşmaların fərqinə görə yerli komanda qələbə qazanıb. Millimiz bu məğlubiyyətin əvəzini İranın digər komandasından çıxıb - 7:3. Qrupdakı son görüşdə Ermənistana 6:4 hesabıyla qalib gələn pəhləvanlarımız 3-cü yer uğrunda qarşılaşmaya vəsiqə qazanıblar. Son görüşdə İranın daha bir komandası ilə qarşılaşan komandamız iki güləşçimizin zədələnməsi səbəbindən görüşü məğlub başa vurub- 4:6. Bu nəticə ilə güləş yığmamız Urmiyada 4-cü yeri tutub.

*Taekvondo*

## *Komandamız Avropa birinciliyində yarışır*

Noyabrın 29-da İspaniyada taekvondo üzrə Avropa birinciliyinə start verilib. Komandamız qitə birinciliyində 11 taekvondoçu ilə mübarizə aparır. Təmsilçilərimiz yarışda baş məşqçi Səbuhi Zülfüqarov və böyük məşqçi Sənan Həşimovun rəhbərliyi altında iştirak edirlər.

Yarışda ölkəmizi beynəlxalq dərəcəli hakimlər, Azərbaycan Taekvondo Federasiyasının baş hakimi Elşən Quliyev və Coşqun Nadirov təmsil edir.

Avropa birinciliyinə dekabrın 2-də yekun vurulacaq.

*Boks*

## Ölkə çempionatı bu gün yekun vurulacaq

Noyabrın 26-da böyüklər arasında boks üzrə Azərbaycan çempionatına start verilib.

Boks Mərkəzində təşkil olunan yarışda 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşəcək. Çempionatda respublikanın müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən 138 kişi boksçu mübarizə aparır.

Ölkə çempionatının yeni qaliblərinin adına bu gün keçiriləcək final görüşlərindən sonra adınlıq gələcək. Mükafatçılar yığmanın heyətinə cəlb olunacaq və beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

* * *

Kişi boksçulardan ibarət Azərbaycan yığmasında baş məşqçi dəyişikliyi olub.

Komandamız təcrübəli mütəxəssis Vaqif Şirinova həvalə edilib.

O, bu postda ukraynalı Leonid Loivskini əvəzləyib. V.Şirinov ən azı 2020-ci ildə keçiriləcək Tokio Yay Olimpiya Oyunlarının sonunadək millimizin "sükanı arxasında" olacaq.

Komandamızda böyük məşqçi funksiyasını isə yenə də Nəriman Abdullayev yerinə yetirəcək.

Qeyd edək ki, Vaqif Şirinov bu təyinata qədər gənclərdən ibarət yığmamıza rəhbərlik edirdi.

*Velosiped*

## Velosiped idmanında gender bərabərliyi

"Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində BMT-nin Azərbaycan nümayəndəliyinin dəstəyi ilə təlim-seminar və veloyürüşlərə start verilib. Burada məqsəd yeniyetmə və gənclər arasında velosiped idmanına marağı artırmaq və bu idman növündə gender bərabərliyini təmin etməkdir. "Sağlam həyata doğru: veloidmanında gender bərabərliyi" mövzusunda təlim-seminar və veloyürüşlər Azərbaycan Velosiped İdmanı Federasiyası, "Gənc Velosipedçilər" İctimai Birliyi və Respublika Olimpiya Velosiped Məktəbinin təşkilatçılığı ilə regionlarda həyata keçiriləcək.

Mingəçevir şəhərindən başlayan layihənin birinci günü qadınların bu idman növünə cəlb edilməsi, velosiped idmanının gender əsaslı zorakılığa qarşı mübarizədə qızların və qadınların maarifləndirilməsinin əhəmiyyətindən, bu idman növünün qadın reproduktiv sağlamlığında rolu və ondan düzgün istifadə qaydalarından bəhs edilib. Seminar zamanı gənc qızlara əyani olaraq velosiped üzərində praktiki təlimlər keçirilərək müzakirələr aparılıb, onları maraqlandıran suallar cavablandırılıb. Yeniyetmə və gənclərə bu idman növündən və qadın hüquqlarından bəhs edən kitablar və müxtəlif çap materialları paylanılıb. Layihənin ikinci günü seminar və təlimlərdə iştirak etmiş qızların iştirakı ilə Mingəçevir şəhərində veloyürüş keçirilib. Layihə çərçivəsində Qusar, Lənkəran və Biləsuvarda da anoloji tədbirlər təşkil olunacaq.

*Xəbərlər*

## Ağırlıqqaldıranlar Şüvəlanda bir araya gəliblər

Noyabrın 29-da ağırlıqqaldırma üzrə Azərbaycan kuboku yarışlarına start verilib. Turnir Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında keçirilir. Yarışda ölkəmizin müxtəlif klub və cəmiyyətlərini təmsil edən 100-ə yaxın atlet mübarizə aparır.

Azərbaycan kubokunun keçirilməsində məqsəd atletlərin hazırlıq səviyyəsinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsidir.

Turnirə bu gün yekun vurulacaq.

## Antidopinq mövzusunda maarifləndirici seminar keçirilib

Azərbaycan Milli Antidopinq Agentliyi və Azərbaycan Qılıncoynatma Federasiyasının birgə təşkilatçılığı ilə antidopinq mövzusunda maarifləndirici seminar keçirilib.

Tədbirdə dinləyici qismində qılıncoynatma üzrə milli komandamızın üzvləri, məşqçilər heyəti və federasiya rəsmiləri iştirak ediblər.

Təqdimat şəklində keçirilən seminarda antidopinq qayda pozuntuları, dopinq təhlükələri və nəzarəti prosesi haqda idmançılara ətraflı məlumat verilib.

Təhsil və təlim üzrə menecer Lalə Hacıyeva qaydalar riayət olunmayacağı təqdirdə tətbiq olunacaq cəzalar barədə danışıb.

Seminarda idmançılara bildirilib ki, onlar istənilən yerdə, istənilən zaman, heç bir xəbərdarlıq olmadan dopinq testindən keçirilə bilərlər. Qaydalara əsasən, idmançı antidopinq qaydalarına riayət etməli, qadağan edilmiş maddə və üsullardan istifadə olunmamasını təmin etməli, müalicənin antidopinq qaydalarına zidd olaraq aparılmadığına əmin olmalı, bununla yanaşı məkan məlumatını təmin etməlidir.

İnteraktiv şəkildə keçirilən seminarda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## İdmançılarımız beynəlxalq turnirə hazırlaşırlar

Noyabrın 26-da stolüstü tennis üzrə 2006-cı il və daha kiçik təvəllüdlü idmançılar üçün təlim-məşq toplanışına start verilib. Sumqayıt şəhərində keçirilən təlim-məşq toplanışı dekabrın 4-9-da Rusiyanın Sankt-Peterburq şəhərində N.Q.Nikitinin xatirəsinə həsr olunmuş stolüstü tennis üzrə XIX beynəlxalq turnirə hazırlıq məqsədi daşıyır. Təlim-məşq toplanışı dekabrın 3-dək davam edəcək

## Basketbol üzrə yarışlara yekun vurulub

Noyabrın 23-də 248 nömrəli tam orta məktəbdə məktəblər arasında respublika çempionatı çərçivəsində oğlanların basketbol üzrə yarışlarına yekun vurulub.

Yarış Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışda birinci yeri 267 nömrəli məktəb-liseyin komandası tutub. 314 və 126 nömrəli tam orta məktəbin komandaları müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

*Cüdo*




## "Judo Club 2012"nin təmsilçiləri ölkə çempionatını 5 medalla başa vurublar

Bu yaxınlarda Bakı İdman Sarayında cüdo üzrə Azərbaycan çempionatı keçirilib. 56 klubdan 396 (333 kişi, 63 qadın) cüdoçunun mübarizə apardığı yarışda "Judo Club 2012"nin təmsilçiləri də qüvvələrini sınayıblar.

Klubun üzvlərindən Murad Fətiyev (81 kq) və Diana Şoranova (63 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Klubun digər təmsilçilərindən Afiq Səfərli (81 kq) və Aidə Baxışova (70 kq) ikinci yerə layiq görülüb. Nurlan Osmanov (66 kq) isə çempionatı bürünc medalla başa vurub. Beləliklə, Azərbaycan çempionatını 2 qızıl, 2 gümüş və 1 bürünc medalla başa vuran "Judo Club 2012" komanda hesabında üçüncü yeri tutub.

Mükafatçılara medallar, Azərbaycan Cüdo Federasiyasının diplomları, pul mükafatları təqdim olunub. Komanda hesabında üçüncü yeri tutan "Judo Club 2012"nin baş məşqçisi Tərlan Həsənov kubok və diplomla mükafatlandırılıb.

Fəxri qonaq meydanı

# Bert Şufs: “Biz Braziliyaya qalib gəldik. Unudulmaz hadisədir...”

## “Avropa ölkələrində bədən tərbiyəsi mədəniyyəti mövcuddur”

Bert Şufs 2016-cı ilin avqustundan Belçikanın Azərbaycanda, eyni zamanda, Gürcüstan və Türkmənistanda səfiridir.

Belçikalı diplomat, həm də futbolla yanaşı, ümumilikdə, idmanı yaxşı bilən azarkeşdir.

Cənab Şufsla görüşüb 2018-ci ilin dünya çempionatında 3-cü yeri tutaraq mundiallar tarixində ən böyük uğuruna imza atan futbol üzrə Belçika millisi barədə danışdıq.

Verdiyi cavablar müsahibənin maraqlı alınmasına səbəb oldu.

***- Cənab səfir, Belçikanı bir neçə sözlə necə təsvir edərdiniz? Məsələn, Azərbaycanı biz “Odlar yurdu” adlandırırıq?***

- Belçika kiçik, aran ölkəsidir. O, gözəl həyat, ləziz yeməklər və içkilərlə xarakterizə olunur. Həmçinin Belçika Avropanın mərkəzində yerləşir. Saat yarım ərzində siz qatarla Brüsseldən Fransaya, Böyük Britaniyaya, Almaniya və Niderlanda gedə bilərsiniz. Bir sözlə desək, Belçika “Avropanın ürəyi”dir.

***- Belçika Olimpiya Oyunlarında oxatma, velosiped idmanı, atletika, atçılıq, qılıncoynatma, yelkən idmanı və cüdo kimi idman növlərində daha çox medal qazanıb. Ümumiyyətlə, hansı idman növü Belçikada daha populyardır?***

- İdmanla məşğul olmaq dedikdə, fəal idmançı olmağı və passiv olaraq idmanı izləməyi bir-birindən fərqləndirmək lazımdır. Asan olan ikincidir. Passiv olaraq bizdə iki idman növü daha çox populyardır - futbol və velosiped idmanı. Fəal surətdə isə bizdə bir çox idman növləri ilə məşğul olurlar. Ümumiyyətlə, Belçikada, demək olar ki, hər uşaq və gənc idmanla məşğul olur. Oğlanlar futbola, qızlar isə atletika, tennis və voleybol, basketbol, otüstü hokkey kimi komanda növlərinə üstünlük verirlər.

***- Bəs necə olur ki, təxminən 11 milyon nəfər əhalisi olan bir ölkə dünya çempionatında 3-cü yeri tutmaq, FİFA reytinqində lider olmaq üçün 11 əla futbolçu tapa bilir? Bir belçikalı olaraq bunun sirrini bilirsinizmi?***

- Bu asan suala bənzəsə də, cavabı, kifayət qədər, uzun və çətindir.

Hər şeydən əvvəl, demək istəyirəm ki, siz 11 deyil, ən azı 18 yaxşı oyunçuya malik olmalısınız. Əks halda, yarımfinala çıxa bilməyəcəksiniz. Yeri gəlmişkən, bəzi digər komandalar və elə Belçika yığması əvvəlki turnirlərdə bu problemi yaşayıb. Belçikanın 2018 mundialında çıxış edən oyunçularının siyahısına baxsanız, görərsiniz ki, onların, demək olar, hamısı dörd böyük çempionatda - İngiltərə, Almaniya, İspaniya və İtaliyada, həmçinin Çempionlar Liqasında PSJ kimi komandada forma geyinir.

Yaxşı, bəs bu necə baş verir?

Düşünürəm ki, bir neçə səbəb var amma bunların hamısına kompleks şəklində baxmaq lazımdır.

Hər şeydən əvvəl, Belçika kimi Avropa ölkələrində bir növ bədən tərbiyəsi mədəniyyəti mövcuddur. İdmanla məşğul olmaq gündəlik həyatın bir hissəsidir. Məktəblərdə 6 yaşından başlayaraq hamı bədən tərbiyəsi təhsili alır. Bunu Niderland, Xorvatiya, Skandinaviya ölkələri və Almaniyada da görə bilərsiniz. Bizdə hər bir an idmanla bağlıdır. Həmçinin gündəlik həyatda da, əsasən, gənc belçikalılar piyada gəzməyi və velosiped sürməyi xoşlayır.

İkinci element - biz kiçik yaşlarında rəqabət aparmağı xoşlayırıq. Məsələn, Belçikada ölkə futbol federasiyasının qeydə aldığı 500 min futbolçu var. Yəni ən azından Belçika əhalisinin 5 %-i yarışaraq futbol oynayır. Əlbəttə ki, sizin 500 min oyunçunuz varsa, onların arasından 15 yaxşı oyunçu tapmaq asandır. Bunu əhalisi təxminən 11 milyona yaxın olan Azərbaycanla müqayisə edin.



Üçüncü elementi mən “təcrübə” adlandırardım. Belçika, Niderland, Danimarka və ya hazırda Xorvatiya kimi ölkələr bəzən güclü futbol nəslinə sahib olurlar. Bu nəsil təcrübə qazanmalıdır. Hazırkı Belçika yığmasının oyunçuları 2010-cu ildən birlikdə oynayır və ilk nəticələrini DÇ-2014 və AÇ-2016-da qazanıblar. Dünya çempionatı-2018-də isə onlar mükəmməl idilər.

2011-ci il sentyabrın 2-də, yəni təxminən 7 il bundan əvvəl Bakıda Azərbaycan - Belçika qarşılaşması olub - 1:1. Bilirsinizmi, həmin komandanın 8 oyunçusu bu yay mundialda Braziliyaya qarşı oynayıb: Kompany, Vertonghen, Alderweireldt, De Bruyne, Fellaini, Hazard, Lukaku, Mertens. Təbii ki, onların bir-birilə anlaşmasının avtomatikləşməsi 7 illik dövrü əhatə edir.

Dördüncü element ondan ibarətdir ki, bu oyunçular xarici ölkələrdə formalaşıblar. Onlar 13-15 yaşlarında Belçikanı tərk ediblər və yetkinlik yaşlarına orada çatıblar. Hazard “Lill”ə getmişdi, bir çox oyunçu Niderlanda - “Ajaks”a, digərləri İngiltərə və ya Almaniyaya üz tutmuşdular.

Qeyd edim ki, Belçika hazırda təkcə futbolda deyil, digər komanda idman növlərində də yaxşı nəticələr göstərir.





Xüsusilə də, qadınlar arasında basketbol, voleybol və otüstü hokkey idman növlərində. Burada vacib olan odur ki, Belçikada siz peşəkar idmançı ola-ola ali təhsilinizi də davam etdirə bilərsiniz. Yəni siz həm peşəkar idmanla məşğul olub, həm də oxuya bilərsiniz - bu çox vacibdir.

Nəhayət, idmanı daha da kütləviləşdirmək üçün sizdə gənclərin nümunə götürə biləcəyi örnəklər olmalıdır. Məsələn, biz bunu Belçika qadın tennisində görmüşük - Justin Henin və Kim Klasters aparıcı raketka ustaları idilər. 24 yaşında atletikanın çoxnövçülük növündə artıq Olimpiya, dünya və Avropa çempionu olan Nafi Thiamın timsalında da bunu görə bilərik.

***- Belçika yığmasının heyətində holland dilli flamandlar, fransız dilli vallonlar, həmçinin Afrika və digər müxtəlif əsilli oyunçular var. Deyilənə görə, futbolçularınız öz aralarında ingiliscə danışırlar. Bəs bu fakt nəticə qazanmağa mane olmur ki?***

- Çox maraqlı sualdır. Oyunçular müxtəlif etnik kökdən ola bilər, amma dünya çempionatında çıxış etmiş oyunçuların hamısı Belçikada anadan olub. Buna görə də onlar fransız və ya holland dilində danışır, çoxu da ingilis və ispan dilini bilir. Yəqin ki, baş məşqçi Martinez taktiki tapşırıqları ingiliscə verir, lakin futbolçuların çoxu eyni liqalarda oynadığından ünsiyyət qətiyyən problem deyil. Biz belçikalılar bir cümlədə belə müxtəlif dillərdən istifadə edə bilirik...

***- Sizin futbol azarkeşliyiniz necə başlayıb?***

- Uşaqlığım və gəncliyim 70-80-ci illərdə keçib. O zamanlar bizim “Anderlext”, “Standard”, “Brugge” kimi yaxşı futbol komandalarımız, həmçinin futbolçularımız var idi və əla nəticələrə imza atmışdıq. (Əli ilə 1982-ci il dünya çempionatının Belçika - Argentina açılış oyununda çəkilən məşhur şəkli göstərir) Əlbəttə ki, bu nəsil 1982, 1984 və 1986-cı illərdə (4-cü yer) dünya və Avropa çempionatlarında uğurlar qazandı.

***- Yeri gəlmişkən, Dünya çempionatı-2018 zamanı sosial şəbəkədə Belçika millisinin oyunları haqqında da yazılar dərc etdirmişdik. Həmçinin “Nostalji-1982” adı ilə futbol tarixinin ən yaxşı şəkillərindən birini paylaşmışdım (DÇ-1982-də Belçika - Argentina matçında çəkilən və əfsanəvi Diego Maradonanın altı belçikalı futbolçuya qarşı olduğunu əks etdirən məşhur foto). Bir belçikalı olaraq o şəkil barədə nə deyə bilərsiniz?***

- Sizin paylaşmalarınızı görmüşdüm və bu şəkil mənim üçün çox əhəmiyyətlidir. O zaman 15 yaşındaydım və bu, İspaniya mundialının açılış oyunu idi. Yaxşı komandamız vardı, lakin heç kim qalib gələcəyimizi gözləmirdi. Fakt odur ki, biz gənc Maradonalı, həmçinin Kempes, Passarella, Ardilesli Argentinanı məğlub etdik. 1982-ci ildə biz 1986 mundialındakı uğurumuzun bünövrəsini qoyduq. Təəssüf ki, həmin Maradona 1986-cı ildə Belçikanı mübarizədən kənarlaşdırdı.

***- İzlədiyiniz ən həyəcanlandırıcı, ən unudulmaz oyun və ya oyunları xatırlayaq...***

- 1987-ci ildə “Brugge” UEFA kubokunda Dortmund “Borussia”sına qarşı oynayırdı. İlk oyunda Dortmundda 0:3 hesabı ilə məğlub olmuşduq. Cavab qarşılaşması Milad bayramı ərəfəsində idi, ilk matçda hesab 0:3 olduğuna görə bir çox adam oyuna getmək istəmirdi və onlar biletlərini satırdılar. Mən bileti çox ucuz qiymətə aldım və dostlarımla oyuna getdim. “Brugge” 5:0 hesabı ilə qalib gəldi.

Son dövrdə isə mundialdakı Belçika - Braziliya oyununu çox bəyəndim. Rəsmi səfərlə əlaqədar Gürcüstanda idim. Oyunu Bakıya uçmazdan əvvəl Tbilisi hava limanında izləməkdən başqa yolum yox idi. Hava limanının barında məndən başqa hamı Braliziyaya azarkeşlik edirdi. Əynimə Belçikanın formasını geyinmişdim və nəticədə biz Braziliyaya qalib gəldik. Unudulmaz hadisədir...

***- Mən (R.Mövsümzadə) nüfuzlu “Ballon diOr” (“Qızıl Top”) mükafatının jüri üzvüyəm. Belçikalılar Tibo Kurtua, Kevin de Bruyne və Eden Hazard 2018-ci ildə bu mükafata namizəddirlər. Sizin fikrinizcə, onların “Qızıl Top”u qazanmaqla bağlı hər hansı bir şansı varmı?***

- Kurtua - onun şansı var, çünki düşünürəm ki, hazırda dünyanın ən yaxşı qapıçısıdır. Yaşı çox deyil və görün, “Atletico Madrid”lə hansı titular qazanıb. De Bruyne və Eden Hazard isə hələ yox, gəlin, növbəti ili gözləyək.

***- Mən (R.Mövsümzadə) 2014-cü ildə Monakoda “Golden Foot” mükafatının jüri prezidenti olmuşam. O vaxt məşhur belçikalı qapıçı Jean-Marie Pfaff da “Futbol Əfsanəsi” kimi mükafata layiq görüldü. Onunla orada söhbət etmək imkanım da oldu. Xoş insandır və dünyanın ən zarafatcıl belçikalılarından biridir. Onun haqqında nə deyə bilərsiniz?***

- Tamamilə doğrudur. Onunla bir neçə dəfə rastlaşmışam, inanılmaz insandır. 1986-cı ildə Meksikadakı mundialda ona “El Simpatico” (“Sevimli”) ləqəbi vermişdilər.

Pfaff yaxşı insan olmaqla yanaşı əla futbolçu olub və hamıya qarşı həmişə xoş münasibət bəsləyib. Xatırlayıram, Almaniyada “Bayern Münhen”də oynayırdı və sonra “Trabzonspor”a keçərkən Trabzondakı ilk məşqinə 40 min azarkeş gəlmişdi. Və bu sosial media dövründən əvvəl idi. O, çox yaxşı insandır.

Bu arada, iki ay əvvəl Vyanadan Brüsselə uçarkən onu gördüm. Pfaff təyyarəyə minərkən gözlənilmədən sərnişinləri salamladı, onlar da onu alqışladılar.

***- Azərbaycan-Belçika əlaqələri haqqında nə deyə bilərsiniz? İstər idmanda, istərsə də qeyri-idman sahələrində.***

- Çox yaxşı əlaqələrimiz var, çünki azərbaycanlılarla belçikalıların kifayət qədər ortaq xüsusiyyətləri var. Ölkələrimiz kiçikdir, böyük qonşularımız var. Demək istəyirəm ki, sizin burada Qafqazda İran, Rusiya, Türkiyə kimi qonşularınız, bizim isə Qərbi Avropada Almaniya, Fransa və Böyük Britaniya kimi qonşularımız var. Ona görə də, biz çevik, praqmatik və qonaqpərvərik. Bu anlamda Azərbaycan və Belçika xalqları arasında çox oxşarlıqların olduğunu görmək mümkündür.



İdman sahəsinə gəldikdə isə, Azərbaycanın belə çox beynəlxalq yarış təşkil etməsi yaxşı haldır. Son illər ərzində keçirilən Bakı-2015 Avropa Oyunlarında, qadın voleybolçular arasında Avropa çempionatı-2017-də, cüdo üzrə Dünya çempionatı-2018-də Belçika idmançıları da çıxış ediblər.

***- Belçika və Niderland Avro-2000-ni təşkil etmişdilər, Bakı 2019-cu ildə Avropa Liqasının final matçına ev sahibliyi edəcək, həmçinin bizim şəhər Avro-2020-nin təşkilatçılarından biri olacaq. Bu barədə nə deyə bilərsiniz?***

- Əla ideyadır, bu çox yaxşıdır. Çünki xarici ölkələrdən çoxlu azarkeş Azərbaycanı görməyə gələcək, həmçinin idmanla məşğul olan vətəndaşlarınız üçün də belə mötəbər yarışların burada keçirilməsi vacibdir.

2000-ci ilə gəldikdə isə, bu, Niderlandla bizim üçün çox vacib hadisə idi. Təəssüf ki, o vaxt yaxşı komandamız yox idi.

Ən parlaq ulduzlar ölkənizə gələcək və siz onları canlı görəcəksiniz. Bu 2020-ci ilə aiddir. Siz 4 oyuna ev sahibliyi edəcəksiniz - qrupda üç oyun və 1/4 finalın bir qarşılaşması. Ən azından bir böyük komanda Azərbaycana gələcək, bəlkə də, bu, Belçika olacaq.

***- Lionel Messi, yoxsa Kriştianu Ronaldu?***

- Hər ikisi. Sizə bir əhvalat danışım. 1998-ci ildə Cənubi Amerikaya səfər zamanı braziliyalı və argentinalı dostlar məndən kimin bütün zamanların ən yaxşı futbolçusu olduğunu soruşdular - Pele, yoxsa Maradona? Mən də cavab verdim ki, Yohan Kruyif. Eynilə Messi və Ronaldu kimi. Hər ikisinin son 10 ildə ən yaxşı futbolçu olması ilə bağlı dəlillər gətirmək mümkündür.

***- Bizim oxuculara göndərmək istədiyiniz bir mesaj varmı?***

- Lütfən, istənilən idman növü ilə məşğul olun və komandalarınızı bütün yarışlarda dəstəkləyin!

*Rasim Mövsümzadə,*
*Vüsal Cəfərov*

## Olimpiya mükafatçıları

**_Hər dəfə öz səhifələrində ölkəmizi dünya arenalarında uğurla təmsil edən idmançılar barəsində yazılara geniş yer ayıran "Olimpiya dünyası" qəzeti bu ənənəni davam etdirir. Budəfəki sayımızda Yeniyetmələrin III Yay Olimpiya Oyunları çərçivəsində keçirilən taekvondo yarışlarının bürünc mükafatçısı Cavad Ağayevlə (63 kq) müsahibəni oxucularımıza təqdim edirik._**



# "Bu qələbə mənim karyeramda yeni mərhələ oldu"




***- Cavad, söhbətimizin əvvəlində istərdik ki, özün barədə bir qədər məlumat verəsən.***

- Mən, 2002-ci il yanvarın 15-də Abşeron rayonunun Digah qəsəbəsində anadan olmuşam. Uşaqlıqdan çox hərəkətli idim, həm də idmana həvəsim var idi. Elə oldu ki, bu həvəs sonralar taekvondoya gəlişimə səbəb oldu.

***- Hər bir idmançının həyatında onu bu sahəyə həvəsləndirən bir şəxs olur. Bəs, sən idmana gəlişində kimə borclusan?***

- Təbii ki, valideynlərimə. Onlar məndə idmana olan həvəsi görərək, taekvondo bölməsinə yazdırdılar. Onu da qeyd edim ki, nə ailəmiz, nə də qohumlarımız arasında heç kim idmanla məşğul olmur.

***- Maraqlıdır, nəyə görə taekvondo səni bu qədər özünə bağladı?***

- Bu idman növünü seçməyimin öz səbəbləri var. Qeyd etdiyim kimi, ailəm də mənə çox dəstək oldu.

Bu növü seçməyimin əsas səbəbi fiziki imkanlarımın taekvondo ilə üst-üstə düşməsi idi. Bölməyə gələndə məşqçi-müəllimlər məni yoxlayandan sonra bildirdilər ki, boyum, ayaqlarım və fiziki göstəricilərim məhz bu idman növünə uyğundur. Beləcə, bu idman növü üzrə məşqlərimi davam etdirərək qarşıma yeni məqsədlər qoydum. Bir sözlə, taekvondonu seçdiyim üçün heç də peşman deyiləm. Çalışacağam ki, arzularım uğrunda bütün gücümü səfərbər edim.

***- Cavad, istərdik ki, səninlə birgə Buenos-Ayresdə keçdiyin zəfər yoluna yenidən nəzər salaq.***

- Döyüşlər çox gərgin keçdi. İlk görüşümdə Cənubi Sudan idmançısı Stefan Atemə qalib gəldim. Dörddəbir final mərhələsində isə İran təmsilçisi Hamed Əsgəri Mahiabadi üzərində 9:8 hesabı ilə qələbə qazandım. Yarımfinalda isə cənubi koreyalı idmançı Ço Vun Huya məğlub olaraq bürünc medala sahib çıxdım. Əgər son saniyələrdə daha diqqətli olsa idim, nəticə də fərqli olardı. Bunun üçün təəssüflənsəm də, Vətənə medalla qayıtdığım üçün çox sevinirəm. Qələbəmdə əziyyəti olan bütün məşqçi-müəllimlərimə, federasiya rəhbərliyinə minnətdarlığımı bildirirəm. Məni dəstəkləyən və uğuruma sevinən hər kəsə təşəkkür edirəm.

***- Buenos-Ayresdə sənin çəki dərəcəndə dünya və Avropa çempionları da var idi. Rəqiblərinin titulu olması səni çəkindirmirdi?***

- Hər kəsə məlumdur ki, istər yeniyetmələrin, istərsə də böyüklərin Olimpiya Oyunlarında zəif atlet olmur. Bizim də yarışımızda bu belə idi. Yetərincə güclü, titulu idmançılar var idi. Bu bir daha onu göstərirdi ki, Yeniyetmələrin Yay Olimpiya Oyunlarında iştirak edən idmançılar kifayət qədər güclü idmançılardır. Mənim də rəqiblərim arasında belə idmançılar kifayət qədər idi. Təbii ki, bu bizi bir qədər də qürurlandırırdı. Çünki güclü idmançı üzərində qələbə qazanaraq, medal əldə etməyin sevinci tam başqa olur. Mənim üçün ən güclü rəqib iranlı idmançı idi. O, 63 kq çəki dərəcəsində dünya çempionu olmuşdu. Elə oldu ki, 1/4 finalda həmin idmançı ilə qarşılaşmalı oldum. Rəqibimin titulundan çəkinmirdim. Məşqçilərimin də göstərişlərinə riayət edərək bütün gücümü topladım və qalib gəldim.









***- Bu medal sənin həyatında hansı dəyişikliklərə səbəb olacaq?***

- Təbii ki, hər bir idmançı kimi mən də qızıl medal qazanmaq üçün bu Oyunlarda iştirak edirdim. Qızıl medal qazansaydım çox gözəl olardı. Lakin təəssüflər olsun ki, orada istədiyim döyüşü tam olaraq göstərə bilmədim. Lakin bürünc medal da pis nailiyyət deyil. Əsas odur ki, əziyyətimiz hədər getmədi. O ki, qaldı bu medalın məni nə dərəcədə dəyişməyi sualına, mən hər zaman yüksək nailiyyətlər uğrunda mübarizə aparmışam. Bundan sonra da çalışacağam ki, arzuladığım zirvələri zəhmətim hesabına fəth edim. Əminliklə deyə bilərəm ki, bu medalın mənim karyeramda heç bir mənfi təsiri olmayacaq. Əksinə, əgər mən Buenos-Ayresdən medalsız qayıtsaydım, daha çox üzülərdim. Bəlkə də, həmin uğursuzluq məni həvəsdən salardı. Lakin indi daha həvəsliyəm və özümə çox inanıram. Bu qələbə mənim karyeramda yeni mərhələ oldu.

***- Taekvondo idman növündə hansı nailiyyətlərin var?***

- Keçən il, Türkiyənin Antalya şəhərində klublararası qitə birinciliyində Avropa ikincisi olmuşam. Həmin il həmçinin Kpirin Larnaka şəhərində təşkil olunan Avropa çempionatında bürünc medala sahib çıxmışam. Bu il Türkiyənin İstanbul şəhərində keçirilən klublararası Avropa çempionatının qalibi adını qazanmışam. Bundan başqa bu il Tunisin Hammamet şəhərində gənclər arasında dünya çempionu adına layiq görülmüşəm. Bu nailiyyətlərlə yanaşı, dəfələrlə beynəlxalq və ölkə çempionatlarının qalib və mükafatçısı olmuşam.

***- Qarşıda hansı yarışlarda iştirak edəcəksən?***

- Əsas mühüm yarışlarımız gələn ildən başlayacaq. 2019-cu ildə gənclər arasında Avropa çempionatı keçiriləcək. Çalışacağam ki, bu qitə çempionatından da mükafatla qayıdım. Bundan başqa, böyüklər arasında dünya çempionatında iştirak edəcəyəm. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan bu yarış mənim üçün böyük sınaq və təcrübə olacaq.

***Azər Əlizadə***

## Rusiyadan gümüş medal

Noyabrın 24-25-də Rusiyanın Yakutiya vilayətində mas-restlinq üzrə üçüncü dünya çempionatı keçirilib. Yarışda 39 ölkədən 200-dən çox idmançı mübarizə aparıb. Ölkəmizi bu yarışda Samir Abdullayevin rəhbərliyi altında 6 (4 oğlan, 2 qız) idmançı təmsil edib. Komandamız turniri bir medalla başa vurub. Yeganə medalı komandamıza 55 kq çəki dərəcəsində çıxış edən Şəfəq Məmmədova qazandırıb. O Hindistan, Latviya və ABŞ idmançıları üzərində qələbə qazanaraq finala yüksəlib. Həlledici görüşdə isə rusiyalı rəqibinə məğlub olaraq gümüş medala sahib çıxıb.



### Azərbaycan çempionatı uğurla yekunlaşdı

Bakı İdman Sarayında karate üzrə yeniyetmə və gənclərin 19-cu, böyüklər arasında isə 26-cı Azərbaycan çempionatı keçirilib. Noyabrın 24-də yarışın açılış mərasimi təşkil olunub. İştirakçıların paradından sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) prezidenti Yaşar Bəşirov mərasimdə çıxış edərək ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. Federasiya prezidenti bildirib ki, yarış növbəti il üçün heyəti formalaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. "Çempionatın qalibləri milli komandanın heyətinə cəlb olunacaq və gələn il keçiriləcək mötəbər turnirlərdə ölkəmizi təmsil edəcəklər. Hazırda dünyada karate idmanında böyük rəqabət var. Azərbaycan 200 ölkə arasında ilk beşlikdə qərarlaşıb və bu, çox yaxşı göstəricidir. Hər bir ölkə Tokio-2020 Yay Olimpiya Oyunlarına daha çox lisenziya qazanmaq istəyir. Bu, bizim də əsas hədəfimizdir. Azərbaycan karateçiləri beynəlxalq arenada ciddi rəqib kimi qəbul olunurlar. Sevindirici haldır ki, bizim Rafael Ağayev kimi titullu karateçimiz var. Onun medal kolleksiyasında yalnız Olimpiya medalı yoxdur. İnanırıq ki, Rafael Ağayev Tokio Olimpiadasında bu medalı da kolleksiyasına əlavə edərək bizi sevindirəcək", - deyə Yaşar Bəşirov vurğulayıb.

Milli komandamızın lisenziya xarakterli turnirlərə ciddi hazırlaşacağını deyən federasiya rəsmisi çempionatı açıq elan edib.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirdə çempionatın görüşlərini idarə etmək üçün Türkiyə, Gürcüstan, Qazaxıstan və İrandan dəvət olunmuş hakimlərə xatirə hədiyyələri verilib.

Açılış mərasiminə karateçilərin nümunəvi çıxışları ilə yekun vurulub.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyasının və AMKF-nin birgə təşkil etdiyi çempionatda respublikanın müxtəlif bölgələrindən uşaqlar, yeniyetmələr, gənclər və böyüklər mübarizə aparıblar. Müxtəlif yaş qrupları üzrə keçirilən yarışın qalibləri diplom və medallarla mükafatlandırılıblar.

### Dünya çempionatında uğurlu çıxış

Azərbaycan idmançıları Rusiyanın Medin şəhərində universal döyüş üzrə dünya çempionatında uğurla çıxış ediblər.

İdmançılarımız klassik və layt versiyaları üzrə mübarizə aparıblar. 58 ölkədən 350-dək idmançının iştirak etdiyi dünya çempionatında klassik versiyada 80 kq çəki dərəcəsində mübarizə aparan Nicat Əliyev bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Millimizin digər üzvləri Asif Səmədli (90 kq) gümüş, Fərid Hüseynov (65 kq), Orxan Qurbanov (75 kq) və Mehman Hüseynov (85 kq) bürünc medala sahib olublar. Layt versiyada isə Orxan Şükürov (75 kq) çempionatı ikinci, Əli Həsənli (80 kq) və Namiq Əlizadə (90 kq) üçüncü pillədə başa vurublar.

Millimiz turnirdə Əməkdar məşqçi Elşən İsmayılovun rəhbərliyi altında mübarizə aparıb.

### Muay-tayçılarımız açıq Avropa kuboku yarışlarında 17 medal qazanıblar

Türkiyənin Antalya şəhərində muay-tay üzrə açıq Avropa kuboku yarışları keçirilib.

Turnirdə 23 idmançı ilə iştirak edən Azərbaycan milli komandası 5 qızıl, 4 gümüş və 8 bürünc medal qazanıb.

Yeniyetmələrdən ibarət yığmamız komanda hesabında üçüncü olub.

İyirmi altı ölkədən mindən artıq idmançının iştirak etdiyi turnirdə millimiz Azərbaycan Muay-tay Federasiyasının prezidenti Azər Həsənsoyun rəhbərliyi altında mübarizə aparıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Şöhrətin zirvəsinə idmanla yüksələn Azərbaycan xanımları

***İdmanı qadınlarsız təsəvvür etmək olmaz. Əks cinsin nümayəndələri uşaq və gənclərin fiziki, mənəvi tərbiyəsində aparıcı mövqeyə malikdir. İdmanın demək olar ki, hər bir növündə qadın idmançılara rast gəlmək mümkündür. Bu isə idman yarışlarına olan marağı birə-beş artırır.***

Bu gün atletlərimiz müxtəlif yarışlarda yüksək nailiyyətlərə yiyələnirlər. Həmin idmançılar arasında qadın atletlərimiz də fəallıq nümayiş etdirirlər. Bu hal cəmiyyətimizdə xoş ovqatla qarşılanır. Artıq hər bir valideyn cinsindən aslı olmayaraq öz övladının fiziki və mənəvi cəhətdən sağlam olması üçün idmana müraciət edir. Nəticədə ölkədə gələcəyimiz olan sağlam gənc nəsil formalaşır. "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" layihəsi çərçivəsində bu dəfə azərbaycanlı qadınların idmandakı uğurları və qadın idmanın keçdiyi yola nəzər salmışıq. Böyük və şərəfli yol keçən idmançılarımızın əldə etdikləri nailiyyətləri oxucularımıza təqdim edirik.

Azərbaycanlı qadın idmançılar idmanın müxtəlif növlərində uğurlu addımlar atıblar. Tarixə nəzər salsaq görərik ki, 1923-cü ilin axırları və 1924-cü ilin əvvəllərində əyalətlərdə belə idman bölmələri açılmağa başlayıb. Lənkəranda, Qubada, Zaqatalada, Gəncədə meydana gələn atletika bölmələri buna misal ola bilər. Bu onu göstərir ki, həmin dövrlərdə uşaq və yeniyetmələrin idmanla məşğul olmaları üçün mövcud imkanlar formalaşıb. Atletika bölmələrində bu idman növlərinin sirlərinə yiyələnən yeniyetmələr 1925-ci ildə respublikanın paytaxtında keçirilən birinci Bakı Olimpiadasında öz qüvvələrini sınayıblar. Həmin yeniyetmələr arasında qızlar da fəallıq nümayiş etdiriblər. Bu yarışlarda A. Hüseynova, L.Urbanoviç, N.Samordikor, N.Nikolayeva və digər perspektivli atetlər parlamağa başlayıb.



Respublika qadınlar cəmiyyətinin sədri Zeynab Rzayevanın rəhbərliyi ilə keçirilən qadınlar şurasının toplantısı (1962)

Tezliklə bu cür yarışların sayı artıb. 1925-ci il noyabrın 6-7-də AHİŞ stadionunda həmkarlar ittifaqları bədən tərbiyəçilərinin atletika turniri təşkil olunub. Turnirdə 14 dərnək və müsabiqədənkənar hərbi dənizçilər dərnəyi iştirak edib. 1925-ci ildə ÜHİMŞ-nin qərarı ilə Moskvada həmkarların birinci bədən tərbiyəsi bayramı keçirilib. Həmin bayramda 6 ən böyük həmkarlar ittifaqlarının təmsilçilərindən (dəmiryolçular, toxucular, metalçılar, mədənçilər və sovet ziyalıları) ibarət 600 idmançı qüvvəsini sınayıb. Elə həmin il Fioletov adına Bakı klubunun atletləri Moskvada keçirilən ÜHİMŞ-nin birinci bədən tərbiyəsi bayramında ölkəmizi təmsil ediblər.

## Spartakiadalar idmanın kütləviliyində yeni bir təkan oldu

O dövrdə idmana olan həvəs tezliklə Azərbaycanda da hiss olunmağa başlayıb. İdman tədbirlərinin artması ilə yeni adlar üzə çıxdı. Bu tədbirlər arasında spartakiadaları da xüsusi qeyd etmək olar.

Azərbaycanda keçirilən spartakiadalar demək olar ki, idmanın kütləviliyində yeni bir təkan idi. Bu yarışlarda demək olar ki, respublikanın bütün atletika rekordları yeniləyirdi. Bununla yanaşı, digər idman növlərində də ilk addımlar uğurla nəticələnirdi. Belə ki, voleybol, üzgüçüçülük və güləşdə yeni nailiyyətlər əldə olunurdu. Həmin yarışlarda iştirak edən yeniyetmə və gənc idmançılar ustalıq nümayiş etdirirdilər. Bunun nəticəsidir ki, I Ümumittifaq Spartakiadasından sonra ən yaxşı idmançılar Zaqafqaziya xalqlarının I Spartakiadasında iştirak etdilər. Bu yarışların keçirilməsinin təşəbbüskarı və təşkilatçısı Zaqafqaziya Federasiyası və Zaqafqaziya Bədən Tərbiyəsi Ölkə Şurası idi. Spartakiadanın proqramına futbol, basketbol, tennis, atıcılıq, üzgüçülük, velosiped idmanı, güləş, kəndir dartma, gimnastika, atletika, həndbol və digər idman növləri daxil edilmişdi. Yarışlarda 750 nəfər idmançı qüvvəsini sınamışdı. Müqayisə üçün bildirək ki, əgər Azərbaycanı spartakiadada 50 qadın idmançı təmsil edirdisə, Gürcüstan bu yarışda 46 qadın idmançı ilə çıxış edirdi. Bu spartakiadada qadın idmançılarımız daha müvəffəqiyyətlə çıxış etmişdilər. Təsadüfi deyil ki, Zaqafqaziya spartakiadasının yekunlarına əsasən, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının seçmə komandası təşkil olunarkən, onun tərkibinə Azərbaycanın 134 nümayəndəsi daxil edilmişdi.

Müxtəlif idman növlərində təmsilçilərimizin uğurlu çıxışı da diqqətdən kənarda qalmırdılar. Belə ki, su idmanı növlərində beşmetrlik trampilindən suyatullanmada A.Pimaşkina gümüş medala sahib olmuşdu.Bununla yanaşı Zaqafqaziyanın yığma komandasına daxil olan idmançılardan, tennisçi N.Nikolayeva, Balaxanı voleybolçuları A.Qoryaçova, T.Potapova, A. Mişanova birinci Ümumittifaq spartakiadasında müvəffəqiyyətlə çıxış etmişdilər. Zaqafqaziya federasiyasının yığma komandası spartakiadada beşinci yeri tutmuşdu ki, bu nailiyyətin qazanılmasında Azərbaycan qadın atletlərinin xüsusi rolu olmuşdu.

## İlk addımlar, ildən-ilə yenilənən rekordlar

Azərbaycan idmanının böyük salnaməsində hər gün öz əlamətdarlığı ilə seçilir. Belə ki, 1930-cu il noyabrın 7-də Azərbaycan idmançıları üçün yaddaqalan bir hadisə baş verdi. Həmin gün Bakıda Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutu açıldı. Bu, həm də o deməkdir ki, qızlar da oğlanlarla birlikdə institutda oxumağa gəlmişdilər. Onların arasında institutda təhsil alan yeganə azərbaycanlı qız Məsumə Fərzəliyeva da var idi. Qeyd edək ki, instituta ilk dəfə qəbul olunan qızların sayı cəmi altı nəfər idi.



Sonrakı illərdə (1933-1940) institutu 335 nəfər, o cümlədən 93 qadın bitirdi. Onlardan bu dəfə beş nəfəri azərbaycanlı qızlar idi. Raziya Muradova 1933-cü ildə diplom ala bilməmişdi. Lakin 7 il sonra o, institutu bitirərək diplom əldə etmişdi. Həmin illərdə Humay Zərgərli, Zeynəb Məmmədova və Nina Sultanova məzun adını qazanmışdılar.

Respublikanın ən yaxşı idmançıları ümumittifaq yarışlarında müvəffəqiyyətlə çıxış etməklə bərabər, həm də AzDBİ-də təhsil alırdılar. 1946-cı ildə Bədən Tərbiyəsi İnstitutu 5, 1947-ci ildə isə 27 qadın ixtisasçı hazırlamışdı. Bir il sonra isə institutu 43 qadın tələbə uğurlu bitirmişdi. Bu dövrdə AzDBTİ-nin tərkibində Lenin adına Moskva Dövlət Mərkəzi Bədən Tərbiyəsi İnstitutunun Bakı təlim-məsləhət məntəqəsi açılmışdı. Həmin məntəqə sonra AzDBTİ-nin qiyabi şöbəsinə çevrilmişdi.

Ümumiyyətlə, 1946-1952-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu 212 nəfər qadın bitirmişdi.

1924-cü ilin dekabrında Bakıda ilk dəfə açıq havada atletika üzrə yarışlar keçirilmişdi. Qadın atletlər də həmin yarışda iştirak etmişdilər. Onlardan A.Şahbazova qumbaraatmada 27 metr nəticə göstərmişdi.

1935-ci ilin oktyabrında həmkarlar ittifaqları kollektivlərinin atletika yarışlarında kişilərlə bərabər qadınlar da çıxış edirdi. Bu yarışlarda qadın idmançılarımız Zaqafqaziya və respublika rekorduna yiyələnmişdilər. İştirakçılar arasında Azərbaycan qadın idmançılarımızdan Sona Qasımovanı xüsusi qeyd etmək olar.

O, 1937-ci ildə isə Bakıda keçirilən qardaş respublikaların spartakiadasında Zaqafqaziya rekordçusu olumuşdu. Respublikanın idman həyatında fəal iştirak edən Sona Qasımova 1949-cu ildə Gəncə Bədən Tərbiyəsi Texnikumunu, 1953-cü ildə isə S.M.Kirov adına Azərbaycan DBTİ-ni bitirdikdən sonra Zaqatalada işləyib. Onun əməyi medal və fəxri fərmanlarla qiymətləndirilmişdi. 1964-cü ildə ona Azərbaycan SSR Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adı verilmişdi.

1935-ci ilin payızında Bakıda keçirilən nümayiş çıxışlarına Sovet İttifaqının ən güclü yüngül atletlər qrupu dəvət olunmuşdu. Onların arasında N. Maksimova da var idi. Nəzərinizə çatdırım ki, həmin atletlər azərbaycanlı həmkarları ilə birlikdə dostluq yarışlarında da çıxış etmişdilər.

1935-ci il oktyabrın 18-də Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15 illiyinə həsr olunmuş həmkarlar ittifaqları kollektivləri yüngül atletika yarışlarının təntənəli açılışı olmuşdu. Orada paytaxtla yanaşı, Gəncə, Nuxa (indiki Şəki), Dağlıq Qarabağ Muxtar Vilayəti, Naxçıvan Muxtar SSR və digər rayonları təmsil edən 400 nəfər atlet iştirak edirdi. Həmin yarşlarda 12 Zaqafqaziya və 16 Azərbaycan rekordu qeydə alınmışdı. Komanda hesabında birinci yerə Bədən Tərbiyəsi İnstitutunun tələbələri, ikinci yerə "Vodnik"çilər və üçüncü yerə isə "Dinamo"çular çıxmışdılar.



Bakı şəhərinin «Sağlamlıq zonası»nda idman gimnastikası (1960)

Atletika barəsində onu da qeyd edək ki, 1936-cı ildə ilk dəfə olaraq atletika üzrə Ümumittifaq vahid idman klassifikasiyası tətbiq edilmişdi. Paytaxtı təmsil edən atletlər arasında 6 nəfər 1-ci dərəcəyə layiq görülmüşdü. Qarşıdakı iki-üç il ərzində respublikada yeni SSRİ çempionları və idman ustaları yetişməyə başladı.

Qadınlar arasında ilk dəfə şahmat üzrə Bakı çempionatı 1934-cü ildə keçirilmişdi. Tamara Coqleva həmin çempionatın qalibi kimi tarixə düşmüşdü. O, 1934-cü ildə SSRİ çempionatında da iştirak etmişdi. Bundan sonra qadınlar arasında şahmatın populyarlığını artırmaq üçün Bakı Bədən Tərbiyəsi Şurası nəzdində M.Makaqonovun rəhbərliyi altında xüsusi qadın şahmat kollektivi yaradılmışdı. Bakılı T. Məmmədova - ilk azərbaycanlı şahmatçı qadın kimi SSRİ-nin Moskvada keçirilən qadın şahmatçılarının qurultayına göndərilmişdi.

1936-cı ildə bakılı şahmatçı A.Polisskaya Zaqafqaziya çempionu olmuşdu. Həmin vaxtlarda Azərbaycanın qadın şahmatçılarından X.N.Abiyeva, S.Ələsgərova, V.Cəbrayılova güclü şahmatçılar hesab edilirdilər. Bundan başqa 1964-cü il Bakı çempionu adını almış A.Pirbudaqova respublika çempionatının ən fəal iştirakçılarından sayılırdı. Həmin çempionatda 13 yaşlı A.Saakova yarışların gümüş mükafatına sahib çıxmışdı.

Azərbaycanın qadın şahmatçılarından ən görkəmlisi, beynəlxalq şahmat aləmində məşhur olan simalarından biri Tatyana Zatulovskaya sayılırdı.

1936-cı ildə (25-29 mart) Moskvada pioner və məktəblilərin gimnastika bayramı keçirilmişdi. Tədbirdə Azərbaycandan 12 gimnast iştirak etmişdi ki, onların arasında V.Bendeyeva, V.Kiryuşova, Z.Belyayeva, Q.Andreyeva və A.Saluraniçeva mükafatçılar sırasında yer almışdılar. Bununla yanaşı, 12 nəfərdən 7-si 10 güclü gənc şahmatçı sırasında yer almışdı. Gənc gimnast V.Bondaryeva təmrinləri dəqiq yerinə yetirməklə ÜİHİM-in xüsusi mükafatına yiyələnmişdi. Beləliklə, 1936-cı ildə Moskvada təşkil olunan məktəblilərin Ümumittifaq gimnastika yarışında Azərbaycan atletləri yaxşı çıxış etmişdilər.

1937-ci ildə məktəblilər arasında keçirilən atıcılıq yarışlarında da oğlan və qızlar öz bacarıqlarını nümayiş etdiriblər. Qızlar arasında Gəncə məktəbliləri İra Bauer 50 mümkün xaldan maksimum nəticə ilə birinci, Anna Ştefan isə 44 xalla ikinci yeri tutmuşdu.

## İdman cəmiyyətin hər sahəsində mühüm rola malikdir

Həmin dövrlərdə respublika idmanı yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Bu inkişafa gedən yolda növbəti təkanverici amil ölkədə "Əmək və SSRİ-nin müdafiəsinə hazıram" kompleksinin həyata keçirilməsi olmuşdu. Kompleksin birinci pilləsi aidiyyatı olan qurumun təklifi əsasında işlənib hazırlanaraq, 1931-ci ilin martında təsdiq edilmişdi.

1938-1941-ci illərdə bədən tərbiyəsi ilə məşğul olan kollektivlər, könüllü idman cəmiyyətləri və digər təşkilatları bədən tərbiyəsi hərəkatının yüksəlişinə təkan vermişdi. Məlumdur ki, üzgüçülük, atıcılıq, qumbaraatma, qılıncoynatma böyük əhəmiyyətə malik idman növlərindən sayılırdı. Respublikada kütləvi-idman işinin təşkilində məhz bu idman növlərinə üstünlük verilirdi. Statistikaya görə, respublikanın bədən tərbiyəsi və idman hərəkatının kütləvi təşkilində 1940-cı ildə Azərbaycanın 2036 bədən tərbiyəsi kollektivində 31 mindən artıq mütəxəssis məşğul olmuşdu.

Aparılan müşahidələrə görə, müharibədən əvvəl və sonrakı illərdə Azərbaycan qadınları arasında da bədən tərbiyəsi geniş yayılmışdı.

Həmin ərəfələrdə Azərbaycan qadınlarını mədəni quruculuğun müxtəlif sahələrinə cəlb etmək üçün hərtərəfli tədbirlər görülürdü.

Ona görə də qadınlarla ideya-siyasi iş, onların bədən tərbiyəsi səviyyəsini qaldırmaq üçün idman ən yaxşı vasitə hesab olunurdu. Bu işdə bədən tərbiyəsi və idmanın təbliği üçün ən parlaq vasitə bədən tərbiyəsi nümayişləri idi.

1937-ci ildən Azərbaycanın bədən tərbiyəçiləri Moskvada keçirilən bütün ümumittifaq nümayişlərində iştirak etmişdilər. Azərbaycan SSR-in idman nümayəndələrinin arasında azərbaycanlı qadınlar da az deyildi. O illərdə, xüsusilə gimnastika kütləvi xarakter almışdı. 30-cu illərin sonlarında idman bölmələrində bu növ ilə 15 minə yaxın idmansevər məşğul olurdu. Statistikaya görə, 1940-cı ildə keçirilən respublika yarışlarının finalında 314 idmançı, o cümlədən 147 qadın iştirak etmişdi. 1941-ci ilin sonlarında artıq respublikada M.Məmmədova, Z.Hacıyeva, A.Çervyakova kimi güclü gimnastlar yetişmişdi.

Azərbaycan İdman Komitəsi 1942-ci il yanvarın 29-da müalicə bədən tərbiyəsi üzrə elmi-metodik şuranın tərkibini təsdiq etdi. Şuraya təcrübəli bədən tərbiyə mütəxəssisi, tibb elmləri namizədi, dosent Səlim Əliyev sədr təyin olundu. Komitənin üzvləri arasında bədən tərbiyəsi təlimatçıları Z.Q.Rzayeva, L.Karamurza, L.Lısyakova, L.Burçalova, Y.İkonnikova və başqaları da var idi. Həmin ilin iyulunda şura birinci respublika müalicə bədən tərbiyəsi mövzusunda seminar-müşavirəsini keçirmişdi. Sonralar bu cür seminar-müşavirələr Bakıda müntəzəm təşkil olunmağa başlamışdı. Qeyd edək ki, müalicə bədən tərbiyəsinin inkişafına respublikanın idman cəmiyyətləri də fəal kömək göstərirdilər. Onların səyi nəticəsində 1941-ci ildə hospitalların nəzdində 10 müalicə bədən tərbiyəsi kabineti yaradılmışdı. Onların sərəncamına idman-gimnastika inventarları verilmişdi.

Göründüyü kimi, Azərbaycanda idman ildən-ildən özünün inkişaf mərhəsinə qədəm qoyub. Nəticədə həm kişilər, həm də qadınlar arasında adlı-sanlı idmançılar yetişib, böyük uğurlar əldə olunub və nailiyyətlər Azərbaycan idman tarixində şanlı bir salnaməyə çevrilib. Müstəqil Azərbaycanımızda idmanın və Olimpiya Hərəkatının daha da inkişaf etdirilməsi üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlər bu gün öz yüksək bəhrəsini vermişdir. Azərbaycan dünyanın aparıcı idman dövlətlərindən biridir. Müasir dövrümüzün uşaq, yeniyetmə və gəncləri bu qayğının nəticəsi olaraq idmana böyük maraq göstərir, həm fiziki, həm də mənəvi cəhətdən gələcəyimiz olan sağlam nəsil kimi formalaşırlar.

**Dilqəm Quliyev**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Olimpiya dünyası
30 noyabr - 3 dekabr 2018

## *Paytaxtımız dünya çempionatına uğurla ev sahibliyi etdi*

“Sərhədçi” İdman Olimpiya Kompleksində noyabrın 24-də start götürən alpaqut Turan döyüş sənəti üzrə birinci dünya çempionatı başa çatıb.

Bütün yaş qrupları üzrə 18 ölkədən - Azərbaycan, Türkiyə, Almaniya, Pakistan, Ukrayna, Əfqanıstan, Macarıstan, İran, Hindistan, Gürcüstan, Nepal, Qırğızıstan, Qazaxıstan, Rusiya, Kamerun, Türkmənistan, Nigeriya, Özbəkistandan 500-dək idmançının qüvvəsini sınadığı yarışlarda aypara, batur, caymaz, və qurşaq sistemləri üzrə ən güclü atletlər müəyyənləşib.

Azərbaycan idmançıları çempionatda uğurla çıxış edərək ümumi komanda hesabında birinci yeri tutublar. Türkiyə komandası ikinci, Qazaxıstan və Gürcüstan yığmaları üçüncü yerə layiq görülüblər.

Yarışlarda yüksək nailiyyətlər qazanmış idmançılara kubok, medal və xatirə hədiyyələri təqdim edilib.

“Alpaqut” sözünün mənası “müqəddəs döyüşçü” deməkdir. Alpaqut Turan coğrafiyasında yaşayan, türk xalqlarının ortaq mədəni dünyagörüşünü təmsil və təbliğ edən, eləcə də, milli döyüş ənənələrini inkişaf etdirən, xüsusilə qədim türklərin döyüş mədəniyyətini müasir döyüş sənəti üzərində sistemləşdirən və dərin fəlsəfi-ideoloji məna dayısan idman növüdür. Alpaqut idmanı türk döyüş sənətləri üzrə tədqiqatçı, beynəlxalq dərəcəli idman ustası kutsan Vasif Namazov tərəfindən yaradılıb və türkdilli xalqların qədim döyüş sənətinin müasir döyüş növləri ilə sintezindən ibarətdir.

Dünya Alpaqut Federasiyası 2014-cü ildən başlayaraq bir neçə beynəlxalq tədbir və yarışlar təşkil edib. Federasiyanın Azərbaycanla yanaşı, Almaniya, Böyük Britaniya, Qırğızıstan, Çexiya, Türkiyə, Gürcüstan, İran, Pakistan, Hindistan, Livan, Macarıstan, Ukrayna, Əlcəzair, Qazaxıstan, Qırğızıstan, Nepal, Özbəkistan və Rusiya üzrə nümayəndəlikləri fəaliyyət göstərir.

## Beynəlxalq kubok yarışında ikinci yer

Azərbaycanın milli polo komandası Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı və “PAŞA Sığorta”nın sponsorluğu ilə ABŞ-ın Florida ştatındakı “Grand Champions Polo Club”da keçirilən polo üzrə beynəlxalq kubok yarışında ikinci yeri tutub.

Turnirin final görüşündə dünyanın ən güclü polo komandalarından hesab edilən Azərbaycan millisi ABŞ seçməsi ilə qarşılaşıb.



Yığmamızın baş məşqçisi Namiq Orucovun qərarı ilə start heyətdə Elçin Camallı, Amil Namazov, Andres Laplasette, Adrian Laplasette və Rəşad Həsənov yer alıblar. Gərgin idman mübarizəsi şəraitində keçən final oyununun son dəqiqələrində komandamızın təşəbbüsə yiyələnməsi, Elçin Camallının və Amil Namazovun vurduqları qollara baxmayaraq, matç ABŞ seçməsinin 9:7 hesablı qələbəsi ilə başa çatıb. Millimiz turnirin gümüş medallarına sahib olub.

## “Şimşək” “Payız turniri”nin qalibidir

AFFA-nın, Sahə Futbol Federasiyaları İctimai Birliyinin və “Bakcell” şirkətinin dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı ilə Memarlıq və İnşaat Universitetinin idman zalında eşitmə qüsurlu əlillər arasında futzal üzrə “Payız turniri” başa çatıb. Turnirin qalibi adını “Şimşək” komandası qazanıb. “Azəri” və “Zirvə” isə müvafiq olaraq, ikinci və üçüncü yerləri tutub.



“Şimşək” komandasından Ümüd İbrahimov turnirin ən yaxşı oyunçusu, “Azəri”dən Rabil Şahbazov isə ən yaxşı qapıçı seçiliblər. Turnirin ən məhsuldar futzalçısı “Şimşək” komandasının üzvü İbrahim Qədirli olub.

Sonda komandalara medallar, diplomlar və kuboklar təqdim olunub.

**Unutsaq unudularıq**

# Şuşalı gimnast

***Gimnastika bədənə çeviklik, güc, çəldlik, qədd-qamət, gözəllik verir, insana igidlik və nəciblik hissləri aşılayır. Yunanlar qədimdə gimnastik hərəkətlərdən tək fiziki inkişaf üçün deyil, həm də hərbçilərin yetişdirilməsində də istifadə edirdilər. Qladiator məktəblərində gimnastika qladiatorun çevikliyinin və dözümlülüyünün yüksəldilməsində əvəzedilməz rol oynayırdı.***

Qeyd edək ki, idman gimnastikası üzrə ilk dünya çempionatı Beynəlxalq Gimnastika Federasiyasının (FİG) əsasını qoymuş belçikalı N.C.Kuperusun təşəbbüsü ilə 1903-cü ildə Antverpendə keçirilib. 1903-cü ildən 1913-cü ilə qədər dünya çempionatları iki ildən bir, 1922-ci ildən isə dörd ildən bir keçirilib. FİG-nin 1977-ci ildə keçirilən konqresi gimnastika üzrə dünya çempionatlarının yenidən iki ildən bir keçirilməsi haqqında qərar qəbul edib. Qadınlar ilk dəfə dünya çempionatlarında 1938-ci ildən iştirak etməyə başlayıblar. Bu idman növü üzrə Avropa çempionatı isə 1969-cu ildən etibarən keçirilir.

İdman gimnastikası ilk dəfə olimpiadada 1896-cı ildə Afinada keçirilən müasir Olimpiya Oyunlarının proqramında nümayiş etdirilib.

## İdman gimnastikası Olimpiya oyunlarında

İlk müasir Olimpiya oyunlarında kişilər gimnastikanın turnik, at, halqa, dayaqla tullanma və kanatla dırmanma növləri üzrə yarışıblar. İlk Olimpiya çempionları tirdə Alfred Flatov (Almaniya), dayaqla tullanmada onun həmvətəni Karl Şuman, dəstəkli atda Luis Zutter (İsveçrə), turnikdə German Vayngertner (Almaniya), halqalarda İoannis Mitropulos (Yunanıstan), kanatla dırmanmada Nikolass Andiriakonukos (Yunanıstan) olublar. Şəxsi və komanda birinciliklərində Almaniya gimnastları fərqləniblər - 5 qızıl, 3 gümüş və 1 bürünc medal. Olimpiya Oyunlarında nümayiş etdirilən gimnastika yarışlarına qadınlar ilk dəfə 1928-ci ildə Amsterdamda keçirilən 9-cu Olimpiadada iştirak ediblər. Maraqlıdır ki, Atlanta-1996 Olimpiya Oyunlarında iştirak edən kişi və qadın gimnastların sayı bərabər idi - 108 gimnast.

## Məşhur idman gimnastları

Müxtəlif illərdə idman gimnastikasının inkişafı məşhur gimnastların adı ilə bağlıdır. SSRİ yığmasının tərkibində XVI, XVII və XVIII Olimpiya Oyunlarında cəmi 18 medal (9 qızıl, 5 gümüş, 4 bürünc) qazanmış Larisa Latinanın adı bütün dünyaya yaxşı tanışdır. O, iki dəfə (Melbrun və Roma Olimpiadalarında) çoxnövçülük üzrə mütləq çempion tituluna layiq görülüb (gimnastlar üçün ən yüksək titul “mütləq çempion” adıdır). XX, XXI və XXII Olimpiadaların iştirakçısı, 15 medalın (7 qızıl, 5 gümüş, 3 bürünc) sahibi, Monreal Oyunlarının mütləq çempionu Nikolay Andrianov, XVI, XVII və XVIII Olimpiadalarda 13 medala layiq görülmüş Boris Şaxlin (7 qızıl, 4 gümüş, 2 bürünc), yapon gimnastı Takasi Ono (5 qızıl, 4 gümüş, 4 bürünc) və başqaları idman gimnastikasının tarixinə şanlı səhifələr yazıblar.

## İdman gimnastikası Azərbaycanda

İdman gimnastikası Azərbaycanda keçən əsrin 30-cu illərindən etibarən inkişaf etməyə başlayıb. 1939-cu ildə Bakıda ilk respublika çempionatı keçirilib. 50-ci illərin sonundan etibarən isə Azərbaycanda güclü idman gimnastları nəsli yetişib. Tofiq Mehtiyev, Dmitri Filonov, Kamal Abdullayev, Çingiz Şamilov, Natalya Abdinova (Şetinkina), Raisa Timinova kimi gimnastlar Azərbaycanın idman şərəfini müxtəlif beynəlxalq turnirlərdə layiqincə qoruyublar. 80-ci illərdə isə Kamran Fərzəliyev, Vaqif Sədiyev və Valeri Belenkinin simasında Azərbaycan idman gimnastikasına yeni nəfəs, yeni ruh gəlib.

Azərbaycanın tanınmış idman gimnastı Valeri Belenki 1969-cu ildə Bakıda anadan olub. Kiçik yaşlarından bu idman növü ilə məşğul olmağa başlayan Belenki artıq 14 yaşında SSRİ yığmasının tərkibinə dəvət edilib. 1986-cı ildə Azərbaycanın mütləq çempionu və Azərbaycan kubokunun sahibi olan Valeri Belenki SSRİ yığmasının tərkibində 1989-cu ildə dünya çempionu adını qazanıb. 1990-cı ildə SSRİ yığmasının tərkibində ABŞ-ın Sietl şəhərində keçirilən Xoş Məramlı Oyunlarda paralel qollarda, halqalarda çempion, atda, sərbəst hərəkətlərdə gümüş, dayaqlı tullanmada isə bürünc mükafatçı olub.



1991-ci ildə Dünya kubokunu qazanan V.Belenki 1992-ci ildə Barselonada keçirilən XXV Olimpiya Oyunlarında MDB komandası tərkibində çempion adını qazanıb, şəxsi birincilikdə isə bürünc medala sahib olub. İdmançımız 1995-ci ildə Avropa çempionatının bürünc mükafatını, atla yarışlarda isə qitə çempionu adını qazanıb.

Azərbaycanın idman gimnastları Oleq Stepko, Pyotr Paxnyuk və Eldar Səfərov 2015-ci ildə ölkəmizin ev sahibliyi etdiyi I Avropa Oyunlarında komanda hesabında Azərbaycana bürünc medal qazandırıblar.

## Şuşada gimnastikaya maraq

Azərbaycanın dilbər guşəsi olan və hazırda erməni daşnakları tərəfindən işğal edilən Şuşada da gimnastika idman növünə böyük maraq olub. 1939-cu ildə həmin rayonun Turşsu qəsəbəsində anadan olan Əliqulu İbrahimovun idman gimnastikasına sevgisi hələ məktəb illərində başlayıb. İldmana olan sevgisi onu Məşədi Əzizbəyov adına Şuşa pedaqoji məktəbinin bədən tərbiyəsi müəllimliyi şöbəsinə gətirib. Əliqulu İbrahimov daha sonra ali təhsilini S.M. Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitunda alıb. 1962-ci ildə həmin institutun pedaqoji fakultəsini bitirən şuşalı mütəxəssis idman gimnastikası üzrə ixtisasa yiyələnir. Əliqulu müəllim təhsil aldığı illərdə idmanla müntəzəm məşğul olaraq Şuşanın, keçmiş Dağlıq Qarabağın, eləcə də, doqma təhsil ocağının idman şərəfini layiqincə qorumuşdur. İştirak etdiyi yarışlarda nəticə kimi SSRİ idman ustalığına namizəd normasını yerinə yetirmişdir. İnstitutu bitirdikdən sonra Əliqulu müəllim ixtisaslı kadr kimi təyinatla Dağlıq Qarabağ Muxtar Vilayətinə göndərilir. Xocavənd rayonunda bir il müəllim işlədikdən sonra 1963-cü ildə Vilayət Xalq Maarif şöbəsində fiziki tərbiyə işləri üzrə inspektor vəzifəsinə təyin olunur. Əliqulu müəllim 1963-1966-cı illərdə DQMV-nin məktəblilərinin spartakiadasının keçirilməsinə, idmanın şahmat, basketbol növləri üzrə respublika yarışlarına rəhbərlik etmişdir.




Həmin illərdə Əliqulu müəllim Azərbaycanın idman nümayəndələri tərkibində məktəblilərin ümumittifaq spartakiadasında və SSRİ- xalqlarının IV spartakiadasında iştirak etmişdir.

Əliqulu İbrahimov Şuşanın idman müəllimləri içərisində yeganə bədən tərbiyəsi müəllimidir ki, institutda oxuduğu dövrdə, yeni 1960-1962-ci illərdə “Burevestnik” tələbə idman cəmiyyətində ona böyük etimad göstərərək, məşqçi-müəllim işləməsinə razılıq veriblər. Əliqulu müəllim 1966-cı ildən Şuşa rayon Xalq Maarif Şöbəsində əmək fəaliyyətini davam etdirib. Sonra o, şəhər 1 saylı orta məktəbində bədən tərbiyəsi müəllimi, Kənd Təsərrüfatı Texnikumunda bədən tərbiyəsi rəhbəri və Şuşa Uşaq Gənclər İdman Məktəbinin təşkilatçısı və direktoru işləmişdir.

Əliqulu müəllim bədən tərbiyəsi və idman mütəxəssisi kimi Şuşa idmanının inkişafında əsas rol oynayan insanlardan biri olub. Əliqulu müəllim idman gimnastikası üzrə məşqçi-müəllim işləyərkən onun yetirmələri məktəblilərin Dağlıq Qarabağ Muxtar Vilayəti və respublika yarışlarında 1960-1970-ci illərdə yüksək nəticələr göstəriblər. 1968-ci ilin mart ayında Bakı şəhərində Stepan Razin adına stadionun idman sarayında (indiki İsmət Qayıbov adına stadion) keçirilən idman gimnastikası üzrə məktəblilərin respublika spartakiadəsında onun yetirmələrindən biri olan Əbülqasım Novruzov şəxsi birincilikdə müxtəlif alətlərdə (turnik, paralel qollar, həlqələr, dayaqlı tullanma, dəstəkli idman atı, azadi hərəkətlər) yüksək nəticə göstərmiş, Bakı idmançısından sonra fəxri II (ikinci) yeri tutmuş və böyüklər üçün II (ikinci) dərəcə normasını yerinə yetirmiş və respublika yığma komandasına dəvət almışdır. Mahir Abbasov, Ümidvar Məmmədov, Məmməd Xudaverdiyev, Məhərrəm Novruzov, Niyazi Bağırov, Namiq Rəsulov, Adil Rüstəmov, Nofəl Qurbanov və onlarla başqaları Əliqulu müəllimin yetirmələridir.

Əliqulu müəllim idman gimnastikası üzrə hakimlik dərəcəsinə də sahibdir. O, tələbəlik illərində və Dağlıq Qarabağ Muxtar Vilayətində işləyərkən fəal ictimaiyyətçi kimi bir çox yarışlarda hakimlik etmişdir. Məlum Dağlıq Qarabağ hadisələrindən sonra bədən tərbiyəsi və idmanın vurğunu Əliqulu müəllim iş fəaliyyətini Bakı 2№-li tibb məktəbində bədən tərbiyəsi müəllimi və Şuşa Uşaq Gənclər İdman Məktəbində məşqçi-müəllim kimi davam etdirmişdir. Əliqulu İbrahim oğlu İbrahimov bədən tərbiyəsi və idman sahəsindəki xidmətlərinə görə Azərbaycanın fəxri “Bədən tərbiyəsi və İdman əlaçısı” döş nişanı adına layiq görülmüşdür.

İbrahimov Əliqulu müəllim indi həyatının ahıl illərini Şuşa həsrəti ilə yaşayır. Məcburi köçkünlük həyatı keçirən idman mütəxəssisi ömrünün 80-cı baharını yaşayır. Əliqulu müəllimə vətənə qovuşmağı və möhkəm can sağlığı, uzun ömür arzulayırıq.

***Əbülqasım Növruzov,***
***Şuşa Uşaq Gənclər İdman Şahmat Məktəbinin direktoru***

Olimpiya dünyası



# FUTBOL

## Yığmamız cəmi bir xal itirdi

FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.

Ötən ayla müqayisədə millimizin mövqeyində dəyişiklik olmayıb. Millətlər Liqasında Farer adalarını 2:0 udub, Kosovoya 0:4 hesabı ilə uduzan Qurban Qurbanovun baş məşqçi olduğu komanda 1206 xalla 107-ci yerdədir. Yığmamız cəmi bir xal itirib. Qeyd edək ki, siyahıya 1727 xalla Belçika başçılıq edir. Fransa 2-ci (1726), Braziliya isə 3-cü (1676) yerdə qərarlaşıb.

## *Bu ilin ən yaxşıları gələn il mükafatlanacaq*

Avropa Klublar Assosiasiyası və Avropa Futbol Agentləri Assosiasiyası "Globe Soccer Awards" versiyası üzrə 2018-ci ilin ən yaxşıları adına namizədləri açıqlayıb. Belə ki, ilin ən yaxşı klubu adına namizədlər siyahısında "Real", "Atletiko" və "Liverpul" yer alıb.

İlin ən yaxşı baş məşqçisi adına Didye Deşam (Fransa), Dieqo Simeone ("Atletiko"), Yurgen Klopp ("Liverpul"), Massimiliano Allegri ("Yuventus") və Zinəddin Zidan ("Real"ın sabiq baş məşqçisi) namizəd olub.

İlin ən yaxşı futbolçusu adı uğrunda isə Kriştianu Ronaldo (Portuqaliya, "Real"/"Yuventus"), Antuan Qrizmann (Fransa, "Atletiko") və Klilian Mbappe (Fransa, PSJ) yarışacaq.

Qeyd edək ki, mükafatlandırma mərasimi gələn il yanvarın 3-ü keçiriləcək.

## "Bavariya"nın 450-ci qolu...

"Bavariya" UEFA Çempionlar Liqasında 450 qol həddini keçib.

Almaniya mətbuatında yayılan xəbərə görə, Bundesliqa təmsilçisi ÇL-nin qrup mərhələsinin 5-ci turunda "Benfika"nı məğlub etdiyi oyunda (5:1) buna nail olub.



Aryen Robbenin ikinci qolu "Bavariya"nın bu turnirdə 450-ci qolu kimi tarixə düşüb. Almanlar bu qələbə ilə qollarının sayını 453-ə çatdırıblar.

## ... "Barselona"nın isə 20-ci qələbəsi

"Barselona" daha bir rekorda imza atıb. Kataloniya klubunun rekordu Çempionlar Liqasının qrup mərhələsinin PSV ilə səfər oyununda qeydə alınıb. Ernesto Valverdenin komandası 2:1 hesabı ilə qalib gəlməklə qrup birinciliyini rəsmiləşdirib. Bununla da, "Barselona" 20-ci dəfə ÇL-də öz qrupunun qalibi olub ki, indiyədək heç bir klub bu uğura nail olmayıb.

Qeyd edək ki, "Barselona" yalnız 3 dəfə ÇL-in qrup mərhələsini lider kimi tamamlamayıb

## *Klub öz futbolçusu ilə bağlı fikrini dəyişdi*

"Barselona"nın futbolçusu Osman Dembele bu qış Kataloniya klubundan ayrılmayacaq. Bu barədə "El Mundo Deportivo" nəşri məlumat yayıb. Kataloniya klubunun 21 yaşlı hücumçunun "Barsa"dan ayrılmaq istədiyi xəbərləri təkzib etdiyi vurğulanıb.

Qeyd edək ki, Dembelenin PSJ-yə transfer oluna biləcəyi iddia olunurdu.

Xatırladaq ki, O.Dembele La Liqada "Atletiko" ilə matçda (1:1) komandasının bərabərlik qolunu vurub. Bununla da onun, özünə olan etimadı qaytardığı bildirilib.



# Çempionlar Liqası: İngiltərə klubları ümidləri doğrultmadılar

***Bu həftə Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turuna yekun vurulub. Qitənin ən nüfuzlu futbol turnirində növbəti mərhələyə vəsiqə əldə edən komandaların əsas hissəsi müəyyənləşib.***

Qrup oyunlarının başa çatmasına bir tur qalmış A qrupunda gözlənildiyi kimi, Madrid "Atletiko"su və Dortmund "Borussiya"sı növbəti mərhələyə vəsiqəni təmsil ediblər. Qrupda Avropa Liqasına vəsiqə isə "Brügge"yə qismət olub. B qrupunda "Barselona" qrupu lider kimi tamamlayıb. İkinci vəsiqənin və Avroliqada çıxış edəcək klubun müqəddəratı isə son turda məlum olacaq. "Tottenhem" "Barselona"ya səfərdə qalib gələrsə, İngiltərə təmsilçisi mübarizəni davam etdirə biləcək. Belə halda "İnter"in PSV üzərində qələbəsi formal sayılacaq. Çünki, şəxsi görüşlərə əsasən "Totenhem" İtaliya təmsilçisindən üstündür.





C qrupunda hələ də ilk iki yerin sahibi dəqiq deyil. "Liverpul" yalnız doğma azarkeşlər önündə "Napoli"ni məğlub edib, növbəti mərhələyə vəsiqə əldə edə bilər. PSJ isə səfərdə "Srvena Zvezda"nı üstələməlidir. Qrupda heç-heçə qeydə alınarsa, "Liverpul" mübarizəni Avroliqada davam etdirəcək. Finalı Bakıda təşkil olunacaq turnirdə Serbiya təmsilçilərinin mübarizə aparmaq şansı hələ də qalır. Hələ UEFA Çempionlar Liqasının püşkatma mərasimindən sonra "Qalatasaray"ın D qrupunda favorit olduğunu düşünənlər, məyus olublar. İstanbul təmsilçisi nəinki növbəti mərhələyə vəsiqəni itirib, hətta çıxışını Avroliqada davam etdirmək şansını heçə endirib. Bu qrupda üçüncü yer tutmaq üçün "Qalatasaray" son turda lider "Portu"ya qalib gəlməlidir. "Şalke" ilə "Lokomotiv" görüşü daha çox "dəmiryolçular" üçün əsas sayılacaq. E qrupunda artıq iki vəsiqənin sahibi müəyyənləşib. Son turda qurupun iki güclü komandası - "Ayaks" və "Bavariya" öz aralarında qrup liderini müəyyənləşdircəklər. Üçüncü pillədə olan "Benfika" autsayder AEK-lə oyuna formal yanaşacaq. Mübarizənin son tura qədər davam etdiyi digər bir qrup isə F qrupu sayılır. "Hoffenhaym"ı nəzərə almasaq, qrupda digər üç komandanın növbəti mərhələ imkanı hələ də qalır. Ukrayna "Şaxtyor"u son turda "Lion"a qalib gələrsə, qərbi avropalılar ÇL-də çıxışını davm etdirə bilərlər. Əks təqdirdə fransalıların özləri bu vəsiqəyə yiyələnəcəklər. Qeyri stabil çıxış edən "Mançester Siti"ni isə Almaniya klubu ilə görüşdə heç-heçə də qane edir. Bu qrupda Avropa liqasında hansı klubun çıxış edəcəyi hələ ki, müəyyənləşməyib. Çempionlar Liqasının ardıcıl üçqat qalibi olan Madrid "Real"ının və "Roma"nın da növbəti mərhələdə çıxışı rəsmiləşib. Bu qrupda Avropa Liqasında çıxış edəcək komanda isə son turda dəqiqləşəcək.

H qrupunda da eyni vəziyyətdir. "Yuventus", "Mançester Yunayted" ÇL-in növbəti mərhələsində, "Valensiya" isə Avroliqada mübarizə aparacaq.

Beləliklə, son turda keçiriləcək qarşılaşmaların əksəriyyəti formal xarakter daşısa da, bir neçə görüşdə gərgin mübarizə hökm sürəcək. Məlumat üçün bildirək ki, qrupun son görüşləri dekabrın 12-13-də keçiriləcək.

## Çempionlar Liqası

**Qrup mərhələsi, 5-ci tur**

28 noyabr

### A qrupu

"Atletiko" (İspaniya) - "Monako" (Fransa) - 2:0

"Borussiya" (Dortmund, Almaniya) - "Brügge" (Belçika) - 0:0

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Atletiko | 5 | 4 | 0 | 1 | 9:6 | 12 |
| 2. Borussiya D | 5 | 3 | 1 | 1 | 8:2 | 10 |
| 3. Brügge | 5 | 1 | 2 | 2 | 6:5 | 5 |
| 4. Monako | 5 | 0 | 1 | 4 | 2:12 | 1 |

### B qrupu

"Tottenhem" (İngiltərə) - "İnter" (İtaliya) - 1:0

PSV (Hollandiya) - "Barselona" (İspaniya) - 1:2

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Barselona | 5 | 4 | 1 | 0 | 3:4 | 13 |
| 2. Tottenhem | 5 | 2 | 1 | 2 | 8:9 | 7 |
| 3. İnter | 5 | 2 | 1 | 2 | 5:6 | 7 |
| 4. PSV | 5 | 0 | 1 | 4 | 5:12 | 1 |

### C qrupu

"Napoli" (İtaliya) - "Srvena Zvezda" (Serbiya) - 3:1

PSJ (Fransa) - "Liverpul" (İngiltərə) - 2:1

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Napoli | 5 | 2 | 3 | 0 | 7:4 | 9 |
| 2. PSJ | 5 | 2 | 2 | 1 | 13:8 | 8 |
| 3. Liverpul | 5 | 2 | 0 | 3 | 8:7 | 6 |
| 4. Srvena Svezda | 5 | 1 | 1 | 3 | 4:13 | 4 |





### D qrupu

"Lokomotiv" (Moskva, Rusiya) - "Qalatasaray" (Türkiyə) - 2:0

"Portu" (Portuqaliya) - "Şalke" (Almaniya) - 3:1

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. Portu | 5 | 4 | 1 | 012:4 | 13 |
| 2. Şalke | 5 | 2 | 2 | 1 5:4 | 8 |
| 3. Qalatasaray | 5 | 1 | 1 | 3 3:5 | 4 |
| 4. Lokomotiv Moskva | 5 | 1 | 0 | 44:11 | 3 |

27 noyabr

### E qrupu

AEK (Yunanıstan) - "Ayaks" (Hollandiya) - 0:2

"Bavariya" (Almaniya) - "Benfika" (Portuqaliya) - 5:1

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Bavariya | 5 | 4 | 1 | 0 | 12:2 | 13 |
| 2. Ayaks | 5 | 3 | 2 | 0 | 8:2 | 11 |
| 3. Benfika | 5 | 1 | 1 | 3 | 5:11 | 4 |
| 4. AEK | 5 | 0 | 0 | 5 | 2:12 | 0 |

### F qrupu

"Lion" (Fransa) - "Mançester Siti" (İngiltərə) - 2:2

"Hoffenhaym" (Almaniya) - "Şaxtyor" (Ukrayna) - 2:3

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Mançester S | 5 | 3 | 1 | 1 | 14:5 | 10 |
| 2. Lion | 5 | 1 | 4 | 0 | 11:10 | 7 |
| 3. Şaxtyor | 5 | 1 | 2 | 2 | 7:15 | 5 |
| 4. Hoffenhaym | 5 | 0 | 3 | 2 | 10:12 | 3 |

### G qrupu

SSKA (Moskva, Rusiya) - "Viktoriya" (Çexiya) - 1:2

"Roma" (İtaliya) - "Real" (İspaniya) - 0:2

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Real | 5 | 4 | 0 | 1 | 12:2 | 12 |
| 2. Roma | 5 | 3 | 0 | 2 | 10:6 | 9 |
| 3. Viktoriya | 5 | 1 | 1 | 3 | 5:15 | 4 |
| 4. SSKA | 5 | 1 | 1 | 3 | 5:9 | 4 |

### H qrupu

"Yuventus" (İtaliya) - "Valensiya" (İspaniya) - 1:0

"Mançester Yunayted" (İngiltərə) - "Yanq Boyz" (İsveçrə) - 1:0

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Yuventus | 5 | 4 | 0 | 1 | 8:2 | 12 |
| 2. Mançester Y | 5 | 3 | 1 | 1 | 6:2 | 10 |
| 3. Valensiya | 5 | 1 | 2 | 2 | 4:5 | 5 |
| 4. Yanq Boyz | 5 | 0 | 1 | 4 | 2:11 | 1 |

# Dünya idmanı



## Roje Federerin uğuru



Dünyanın tanınmış tennisçisi Roje Federer idman karyerasında 16 mövsümdür ki, ATR reytinqini ilk onluqda başa vurur.

Beləliklə, isveçrəli tennisçi bu nəticə ilə ABŞ idmançıları Andre Aqassi və Cimmi Konnorsu təqib edir. Bu üçlüyün ardınca ispaniyalı Rafael Nadal gəlir.

Xatırladaq ki, Roje Federer Böyük dəbilqə turnirinin fərdi yarışlarının 20 qat qalibdir. O həm də cütlüklərin yarışında Pekin-2008 Olimpiadasının çempionudur.

## Voleybol üzrə dünya çempionatı Rusiyada keçiriləcək

Voleybol üzrə kişilərdən ibarət komandalar arasında 2022-ci il dünya çempionatı Rusiyada keçiriləcək.

Beynəlxalq Voleybol Federasiyasının konqresində 2022-ci il dünya çempionatına ev sahibliyi etmək istəyən ölkələrin namizədlikləri səsə qoyulub. Səsvermə nəticəsində Rusiyanın namizədliyi təsdiq edilib. Qeyd olunur ki, turnirin keçiriləcəyi şəhərlər və yarışların vaxtı 2019-cu ilin fevralında Beynəlxalq Voleybol Federasiyasının inzibati şurasında müəyyən olunacaq.

Xatırladaq ki, voleybol üzrə dünya çempionatları hər dörd ildən bir keçirilir. Kişilərdən ibarət komandaların yarışları 1949-cu ildən, qadın yığmalarının turnirləri isə 1952-ci ildən təşkil olunur. Kişilər arasında turnirlərin ikisi (1952, 1962) və qadın komandaların yarışlarının üçü (1952, 1962, 1978) SSRİ-də keçirilib.

Qeyd edək ki, Rusiya voleybol üzrə dünya çempionatına ilk dəfə ev sahibliyi edəcək.

## İdeya Ramon Monçiniyə məxsusdur

İtalyanın “Roma” klubu Türkiyənin Milliyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalını ÇL çərçivəsində “Real Madrid”lə keçirilən matça dəvət etmişdi.

Sən demə, bu dəvətə səbəb bozqurd işarəsidir (red.-baş barmaqla iki orta barmağı ovuca paralel şəkildə birləşdirməklə alınan əl işarəsi). Belə ki, italiyanlar bozqurd işarəsini qlobal markaya çevirmək niyyəti ilə dünya miqyasında eyni simvoldan istifadə edən şəxslərlə əlaqə yaratmaq istəyirlər. İdeya klubun idman direktoru Ramon Monçiniyə məxsusdur. O, türkiyəli biznesmen Nüsrət Gökçenin dünyada məşhurlaşmasına yardımçı olan əl işarəsindən ilhamlanaraq “Roma” üçün bu tipdə qlobal marka yaratmaq istəyir.

Maraqlıdır ki, bu iddia “tvitter” sosial şəbəkəsinin istifadəçiləri tərəfindən qaldırılıb. Qeyd edək ki, Dövlət Baxçalı “Roma”nın dəvətini qəbul etməyib.

## “Mən qayıdacağam”



UFC versiyası üzrə sabiq dünya çempionu Konor Makqreqor 2019-cu ildə idman karyerasını davam etdirəcəyini deyib.

“2019-cu ildə idman karyeramı davam etdirəcəyəm. Yəni mən qayıdacağam. Hər birinizə dəstəyiniz üçün təşəkkürümü bildirirəm”, - deyə Konor Makqreqor bildirib.

Qeyd edək ki, Konor Makqreqor hazırkı dünya çempionu Həbib Nurməhəmmədova uduzmamışdan əvvəl də idmana 2 il fasilə vermişdi.

## Alonso marafonda iştirak edəcək



Formula-1 yarışlarında karyerasını başa vuran ispaniyalı pilot Fernando Alonso “Wayne Taylor Racing” qrupunun tərkibində və”Cadillac Dİ-VR” avtomobilinin sükanı arxasında 2019-cu ilin İMSA seriyasından olan “Daytonada 24 saat” marafonunda iştirak edəcək. Bununla bağlı “General Motors” şirkəti ilə pilot arasında razılıq əldə olunub.

Bu razılığa əsasən, Alonso “İndy 5090” əfsanəvi yürüşündə “Chevrolet” mühərriki olan maşınla çıxış edəcək. Kontrakt haqqında açıqlama dekabrın əvvəlində gözlənilir.

Əvvəllər Alonso və dəfələrlə NASCAR çempionu olmuş Cimmi Conson Bəhreyn trasında nümunəvi çıxışlar keçiriblər. Pilotlar bu yürüşlərdə texnika mübadiləsi ediblər.

Xatırladaq ki, Fernando Alonso Formula-1 dünya çempionatlarında özünün son yürüşünü bu yaxınlarda noyabrın 25-də Əbu-Dabidə keçirilən Qran-Pridə keçirib.

## Rekord tamaşaçı

Türkiyə Super Liqasında keçirilən oyunda rekord müəyyən edilib.



“Trabzonspor”un “Fənərbaxça”nı məğlub etdiyi görüşü tribunalardan 37 min 600 tərəfdar izləyib. Bu, Qara dəniz təmsilçisi üçün rekord göstəricidir.

Qeyd edək ki, matçın keçirildiyi “Şenol Günəş” stadionu 42 min tamaşaçı tutumuna malikdir.

## Stadion niyə cərimələndi?

Ukraynanın “Olimpik” futbol klubu cərimə edilib. Buna səbəb komandanın danışılmış oyunlarda iştirak etməsidir. Ukrayna Futbol Federasiyası “Olimpik”i 17 min dollar ödəməyə məcbur edib.

Qeyd edək ki, hazırda “Olimpik” Ukrayna Premyer Liqasında 17 xalla 9-cu pillədə yer alır.

## 15 illik cəza

Sabiq futbolçunun narkolaboratoriyaya sahib olduğu aşkarlanıb.

Cənubi afrikalı futbolçu Mayk Manqena polis tərəfindən saxlanılıb. Məlum olub ki, onun fermasında narkolaboratoriya fəaliyyət göstərir. 60 yaşlı veteran futbolçunu 15 illik həbs cəzası gözləyir.

Qeyd edək ki, Manqena vaxtilə İngiltərinin “Uotford” klubunun idman şərəfini qoruyub. Bir müddət əvvəl Mayk Manqena televiziyada şərhçi kimi çalışıb.

## Pol Poqba futbola borcludur

Fransa yığmasının üzvü Pol Poqba futbola borclu olduğunu deyib.

“Mançester Yunayted”in şərəfini qoruyan yarımmüdafiəçi həyatda qazandığı hər şeyə görə futbola borclu olduğunu söyləyib:”İnsanları mənim həyat tərzim çox maraqlandırır. Onlar sosial şəbəkələrdən daim məni izləyirlər. Həyatda istədiyim hər şeyə nail olmuşam. Buna görə də mən futbola borcluyam ”.

Qeyd edək ki, Pol Poqba Fransanın GQ jurnalının keçirdiyi sorğuda ilin futbolçusu seçilib.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlak Dövlət Reyestri Xidməti Bakı Şəhər Ərazi İdarəsi tərəfindən **Ağayev Rövşən Qiyas oğlunun** adına verilmiş Texniki Pasport (qeyri-yaşayış binası qaraj inventar Nº 11/111) itdiyi üçün etibarsız sayılır

Qənbər Ağayev, Ələmdar Məmmədov, Nazilə İsmayılova, Aslan Şirəliyev və Murad Fərzəliyev

**professor Əjdər Ağayevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19